

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Görkəmli ziyalı - akademik Nərgiz Paşayeva



3

SƏS

№ 229 (6912)

14 dekabr 2023-cü il.
Qiymәti 60 qәpik

# Ölkəmizin müstəqil xarici siyasət kursu milli maraqlara əsaslanır

PREZİDENT İLHAM ƏLİYEV: "Azərbaycanın iqtisadi inkişafının təməlində, əsasən, tərəfimizdən aparılmış islahatlar dayanır"



2

# Sülhə maneçiliyin Ermənistan üçün vəd etdiyi TƏHLÜKƏ



7

## Hüseyn Axundov və Aqşin Bəbirov əsirlikdən azad olunublar



4

## Yeni İl yarmarkalarında son vəziyyət necədir? - REPORTAJ



6

## "Müxalifət özlərinin nə qədər aciz durumda olduqlarının fərqindədir"



10

## Qərbi Azərbaycana tarixi səyahət



11

## Multiterror: Uşaqlarımızın psixologiyasını kim və necə pozur?



9

# Ölkəmizin müstəqil xarici siyasət kursu milli maraqlara əsaslanır

## PREZİDENT İLHAM ƏLİYEV: "Azərbaycanın iqtisadi inkişafının təməlində, əsasən, tərəfimizdən aparılmış islahatlar dayanır"



Prezident İlham Əliyevin dünyanın nüfuzlu media orqanlarına müsahibələri, eləcə də müxtəlif platformalarda etdiyi çıxışlar beynəlxalq ictimaiyyətin hər zaman diqqətində olur. "Euronews" televiziyasına Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin verdiyi müsahibədə ölkəmizin ötən dövr ərzində keçdiyi inkişaf yolu, iqtisadi potensialı və bu istiqamətdə perspektivlər haqqında ətraflı fikirlərini bölüşüb. Əsas məqamlardan biri də odur ki, bu gün Azərbaycan dünyada etibarlı tərəfdaş kimi qəbul olunur. Əlbəttə ki, bu uğura dövlətimizin düzgün, uzaqgörən və praqmatik siyasəti nəticəsində nail olunub. Hazırda dünyada mürəkkəb proseslər baş verir və bu da təhlükəsizlik amilini önə çıxarır. Dövlətimizin başçısının müsahibədə dediyi kimi, Azərbaycanı istənilən rəqabətdən, geosiyasi mübarizədən və ya böyük dövlətlərin toqquşmasından qorumaq üçün lazımi addımlar atılır. Azərbaycan müstəqil xarici və daxili siyasətə malik ölkədir və bu siyasəti milli maraqlara əsaslanaraq yürüdür. Əsas amillərdən biri ölkəni qarşıdurma, yaxud rəqabət arenasına çevirməməklə dövləti mənfi xarici təsirdən və daxili işlərə müdaxilədən qorumaqdır. Uğurlamızın əsasında dayanan əsas amillərdən biri məhz dövlətimizin müstəqil siyasət yürütməsidir. Bu səbəbdən də ölkəmizin beynəlxalq aləmdə nüfuzu davamlı olaraq yüksəlir. Təsadüfi deyil ki, Azərbaycan dördüncü ildir ki, BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına sədrlik edir. Bir çox üzv ölkənin - 120 üzv ölkənin ümumi rəyinə əsasən Azərbaycan Qoşulmama Hərəkatına yeni ölçü və dinamika verməkdə önəmli rol oynayıb. Cənab Prezidentin müsahibədə dediyi kimi, Azərbaycan Qoşulmama Hərəkatının institusional inkişafı ilə bağlı çoxlu addımlar atıb. Parlament və gənclər platformaları yaranıb, qadınlar üçün platformanın yaradılması üzərində işlər aparılır. COVID pandemiyası məsələsi ilə bağlı çox fəal olmaqla 80-dən çox ölkəyə yardım göstərilib. Qoşulmama Hərəkatında sədrliyimiz bizə siyasətimizi, imkanlarımızı nümayiş etdirməyə şərait yaratdı. Bundan başqa, Azərbaycanın öz qonşuları ilə münasibətləri dostluğa və qarşılıqlı marağa əsaslanır. Yalnız torpaqlarımızı 30 il işğal altında saxlamış Ermənistanla münasibətlər mövcud deyil.



### AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFININ TƏMƏLİNDƏ APARILAN İSLAHATLAR DAYANIR

Dövlət başçımızın "Euronews" televiziyasına növbəti müsahibəsində də mühüm əhəmiyyət kəsb edən məqamlara da toxunub. Ölkəmizin iqtisadi inkişafından danışan Prezident İlham Əliyev bildirib ki, Azərbaycanın iqtisadi inkişafın təməlində aparılan islahatlar dayanır: "Azərbaycanın iqtisadi inkişafının təməlində əsasən tərəfimizdən aparılmış islahatlar dayanır. Biz iqtisadiyyatımızı şaxələndirməyə, neft və qaz sektorundan asılılığı azaltmağa nail olmuşuq. Ancaq neft və qaz sektoru iqtisadiyyatımızın əsas hissəsi olmaqda davam edir".

Bəli, iqtisadi inkişafın təməlində aparılan islahatlar dayanır. Məhz bu islahatların nəticəsidir ki, son 20 ildə Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə yoxdur. Son illərin göstəricilərindən də məlum olduğu kimi, dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyada nüfuzu durmadan artan Azərbaycan regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilmişdir. Prezident İlham Əliyevin liderliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir.

Bu il neft hasilatının cüzi aşağı düşməsi səbəbindən Azərbaycanın iqtisadi artımının nisbətən zəif olduğunu vurğulayan dövlətimizin başçısı bildirib: "Son 20 il ərzində Azərbaycanın ümumi daxili məhsulu (ÜDM) 4 dəfə artıb və bu, çox əhəmiyyətli nailiyyətdir. Bununla yanaşı, biz düşünülmüş sosial siyasət həyata keçirə bilmişik. Son 20 ildə biz yoxsulluq səviyyəsində yaşayan əhalinin sayını təqribən 50 faizdən 5,5 faizə endirə bilmişik. Bu onu nümayiş etdirir ki, enerji layihələrinin həyata keçirilməsi nəticəsində əldə edilmiş sərvət əhalimizin bütün seqmentləri arasında ədalətli bölünüb".

Dövlət başçısı onu da vurğulayıb ki, büdcə gəlirləri 30 dəfədən, xarici ticarət dövriyyəsi isə 10 dəfədən çox artmışdır. Azərbaycanın birbaşa xarici borcu hazırda ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. Son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dollarından çox sərmayə qoyulub ki, bunun da 200 milyard ABŞ dollarına yaxını qeyri-enerji sektorunun payına düşür. Bütün bu uğurlar Azərbaycan Prezidenti cənab İlham Əliyevin yaratdığı yeni reallıqlar, yürütdüyü tam müstəqil siyasət və qlobal lider kimi artan nüfuzunun nəticəsidir. Etibarlı tərəfdaş statusuna sahiblənən Prezident cənab İlham Əliyev həyata keçirdiyi diplomatiya ilə əsl reallığı nümayiş etdirir. Bu gün Azərbaycan siyasi-iqtisadi meyar və parametrlər üzrə kimdənsə asılı deyil. Hətta ölkəmiz istər iqtisadi artım, istərsə də adambaşına düşən valyuta ehtiyatları baxımından dünyada ən qabaqcıl yerlərdədir. İqtisadi müstəqillik isə siyasi müstəqilliyin möhkəmləndirilməsi baxımından əsas şərtdir. Artıq heç kim Azərbaycanla təhdid dili ilə danışa bilməz. Çünki

### BİZİM İQTİSADİ İNKİŞAFIMIZ, HƏTTA DAHA MÜRƏKKƏB GEOSİYASİ VƏZİYYƏTDƏ BELƏ MÜSBƏT OLUB

Prezident İlham Əliyevin "Euronews" televiziyasında yayımlanan müsahibəsində bildirib ki, bu günədək bizim iqtisadi inkişafımız müsbət olub, hətta daha mürəkkəb geosiyasi vəziyyətdə belə: "Bu günədək bizim iqtisadi inkişafımız müsbət olub, hətta daha mürəkkəb geosiyasi vəziyyətdə belə. Hətta işğal dövründə bizim iqtisadiyyatımız inkişaf edib. İndi isə ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etmişik. Biz genişmiqyaslı iqtisadi islahatlar aparırıq ki, büdcədə daha çox vəsait toplansın. Biz gömrük və vergi inzibatçılığı sahəsində olduqca uğurlu islahatlar həyata keçirmişik. Biz bütün dövlət şirkətlərimizdə korporativ idarəçilik sistemi yaratmışıq və bunun bəhrəsini görürük".

Bağlantı layihələrindən böyük həcmdə mənfəət əldə olunacağını qeyd edən dövlətimizin başçısı bildirib: "Biz Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərindən Azərbaycan ərazisindən keçən, müxtəlif istiqamətlərə daşınan 10 milyonlarla ton əlavə yük gözləyirik. Bu, məşğulluq, əlavə vəsait, Azərbaycanın geosiyasi əhəmiyyəti deməkdir. Regionumuzun, Avrasiyanın xəritəsinə baxsanız görərsiniz ki, bütün əsas nəqliyyat marşrutları bizim ərazidən keçir. Biz ən müasir nəqliyyat infrastrukturunu yaratmışıq. Bu da əlavə imkanlar yaradacaq. Üstəgəl yüz minlərlə keçmiş məcburi köçkünü məskunlaşdırmağı planlaşdırdığımız Qarabağ və Şərqi Zəngəzurun azad edilmiş əraziləri - bu da əlavə aparıcı qüvvə olacaqdır. Beləliklə, səmimi desəm nə iqtisadi sahədə, nə də digər sahədə ölkəmiz üçün hər hansı bir potensial riskləri görmürəm".

### ƏSAS DÖVLƏT XƏRCLƏRİMİZ AZAD EDİLMİŞ QARABAĞA VƏ ŞƏRQİ ZƏNGƏZURA YÖNLƏNDİRİLƏCƏK

Dövlətimizin başçısı müsahibəsində Ermənistanın işğal siyasətinin nəticələri, torpaqlarımızın öz gücümüzə azad edilməsi və Ermənistanla sülh sazişinin imzalanması perspektivləri barədə fikirlərini ifadə edib. Bir daha bəyan olunub ki, sülh sazişini imzalamaq və delimitasiya işlərini başlamaq üçün təklif verən ölkə Azərbaycandır. Hazırda Qarabağ məsələsi bitdikdən sonra Ermənistan bizimlə razılığa gəlməkdə daha həvəsli olacaq. Çünki suverenliyimizin bərpası və Qarabağda qeyri-qanuni separatçı rejimin ləğv edilməsi ilə Ermənistana daha cəsarətli davranmağa və ya danışıqlara getməyə mane olan əsas amil artıq mövcud deyil. Qarabağ ermənilərinə gəlincə, dövlətimiz hər zaman bəyan edir ki, könüllü şəkildə Ermənistana köçən həmin ermənilər Azərbaycan vətəndaşlığını qəbul edib burada yaşaya bilərlər. Bu məqsədlə Azərbaycan elektron qeydiyyat portalını yaradıb. Qayıtmaq istəyən hər kəsin belə bir hüququ var. Azərbaycan çoxmillətli dövlətdir. Eyni zamanda, bütün vətəndaşlarımız qanun qarşısında bərabərdir. Hər kəs də dövlətimizin qanunlarından kənar addımlara yol verməməlidir. Bütövlükdə, dövlətimizin başçısının müsahibəsi regionda vəziyyətin beynəlxalq ictimaiyyətə çatdırılması baxımından böyük əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyev "Euronews" televiziyasında yayımlanan müsahibəsində qeyd edib ki, hazırda qarşımızda duran vacib hədəf işğaldan azad edilən Şərqi Zəngəzurun və Qarabağın bərpasıdır. Dövlətimiz ötən qısa zaman kəsiyində bu istiqamətdə böyük işlər görüb, böyük tikinti-quruculuq işləri həyata keçirib. Ölkə başçısı həmçinin bildirib ki, gələn il üçün Azərbaycanın əsas dövlət xərcləri azad edilmiş Qarabağa və Şərqi Zəngəzura yönləndiriləcəkdir. Qarşıda duran əsas məqsədlərdən birincisi keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına mümkün qədər tez qayıdışının və məskunlaşmasının təmin edilməsidir. Nəzərdə tutulub ki, 2026-cı ilin sonunadək 140 min insan öz yurdlarında yerləşdiriləcək. Bunun üçün isə tam yeni infrastruktur yaradılır, yaşayış yerləri inşa edilir və sosial infrastruktura böyük vəsait yatırılır. Həmçinin, 30 il işğal altında olmuş bu ərazilərin kənd təsərrüfatı, hidroelektrik enerjisi, günəş və külək enerjisi, turizm kimi sahələrdə böyük potensialı var. Bu, dövlət investisiya proqramının əsas sahəsi olacaq. Xarici sərmayələrə gəldikdə, yanacaq enerjisi sahəsinə investisiyaların qoyuluşu davam edəcək. Çünki təbii ehtiyatlar baxımından Azərbaycanda böyük potensial var, Avropada Azərbaycan qazına böyük ehtiyac var və bu ehtiyac artmaqdadır. Lakin çox əhəmiyyətli inkişaf bərpaolunan enerji mənbələri ilə bağlıdır. Buna görə də bu, birbaşa xarici investisiyaların əsas istiqaməti olacaq. Ötən ay regionun ən böyük, 230 meqavat gücündə olan və xarici investorlar tərəfindən tam maliyyələşdirilmiş günəş elektrik stansiyasının açılışı keçirilib. Növbəti 5-6 ildə isə 10 qiqavat həcmində günəş və külək enerjisi istehsal edilməsi planlaşdırılır.

Beləliklə, Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında bu gün Azərbaycan sürətli yüksəliş dövrünü yaşayır. Və Prezident İlham Əliyev "Euronews" televiziyasında yayımlanan müsahibəsində göstərilən rəqəmlər bir daha Azərbaycanın güclü iqtisadiyyata malik olduğunu təsdiqləyir, ölkədə iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsindən, həmçinin neft-qaz sektorundan asılılığın azaldılmasından xəbər verir. Eyni zamanda Qarabağ və Şərqi Zəngəzuru quruculuğun əsas meydanına çevirən Prezident İlham Əliyevin dediyi kimi, biz işğaldan azad olan torpaqları cənnət-məkana çevirəcəyik!

**RƏFİQƏ KAMALQIZI**

# Görkəmli ziyalı - akademik Nərgiz Paşayeva





Cəmiyyətdə mövqeyi, elmi-ictimai fəallığı ilə seçilən insanların ömür yoluna salınan naxışlar onların tərcümeyi-halına zəngin izlər həkk edir. Ləyaqətli ömrün müəllifi olmaq, ziyalı işığı ilə xeyirxah əməllərə sahib olmaq bir ömür dastanına çevrilir. Zamanın yetişdirdiyi yüksək intelektli, istedadlı insanlar qarşıya qoyduqları nəcib amallara çatmaq məqsədi ilə daim mübariz ruhlu olaraq zəkası, ağlı ilə öz portret cizgilərini yaradırlar. Azərbaycan elminin, tarixinin, mədəniyyətinin dünyada tanınmasına töhfələrini verən, elmi nailiyyətləri ilə uğurlara imza atan ziyalılar zamanımızın seçilən və həmişə ehtirama layiq olan ziyalılarıdırlar. Bu ziyalılar neçə illik ömürlərini elm fədasi olaraq işıqlı gələcəyimiz naminə elm xəzinəmizin zənginləşməsinə həsr edən insanlardır. Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, AMEA-nın həqiqi üzvü, Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Oksford Universitetinin Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin Azərbaycan tərəfdən rəhbəri Nərgiz Paşayevanın gələcəyə hesablanan uğurlu layihələri, ədəbiyyatımızın dünyada tanıdılması və təbliği istiqamətində gördüyü işlər, bir sözlə, elmin inkişafına həsr





olunan ömrün məhz, elmimizin inkişafında özünəməxsus yeri var. Bu fədakar əmək öz layiqli qiymətini və dəyərini alır.

Nərgiz xanım müsahibələrini birində belə deyir: "Mən 1983-cü ildən - ali məktəbi bitirdiyim ildən işləyirəm. Filologiya fakültəsini qırmızı diploma bitirmişəm. Məni Universitetdə dərs demək üçün saxladılar. Əvvəl assistent, sonra müəllim, daha sonra baş müəllim oldum. 26 yaşında mən artıq elmlər namizədi idim. Daha sonra dosent, kafedranın professoru, prorektor nəhayət, rektor oldum. Amma işləmək, iki körpə uşaqla mühazirə oxumaq asan deyildi. Çox yorulurdum". Belə başlanan ömür yolunun elmi fəaliyyəti zaman ötdükcə öz bəhrəsini verməyə başlayır.

## "MƏDƏNİYYƏT HƏMİŞƏ YÜKSƏK ESTETİK ZÖVQDÜR"

N.Paşayeva hesab edir ki, təhsil insanın xarici görkəminə, simasına da nufuz edir: "İnsan nə qədər mədənidirsə, bu onun xarici görkəmində də özünü göstərir. Forma gözəlliyi məzmun gözəlliyidir. Məzmun nə qədər gözəldirsə, forma o qədər mükəmməldir. Mədəniyyət həmişə yüksək estetik zövqdur". Beləcə, ömrünü elmə bağlayır və əldə olunan uğurların gördükcə bu onu daha özünə cəlb edir və xəzinədən bəhrələnməyin nə qədər faydalı olduğunu dərk edir. Əlbəttə ki, Nərgiz xanımı bir şəxsiyyət və elm fədaisi olaraq şöhrət tapması ailədən gələn dəyərlərin, bu şəcərənin ruhu ilə sıx bağlıdır. Mir Cəlal Paşayevin ədəbi irsi, oradan aşılanan dəyərlər Nərgiz xanımın formalaşmasından yan ötməmişdir. Nərgiz xanım ədəbi-elmi şöhrəti bu şəcərədən qaynaqlanıb. Əlbəttə ki, elmi nailiyyətləri və elm fədaisi kimi yola çıxmaq, elm axtarışlar aparmaq doğulub boya-başa çatdığı ailənin ənənələrindən qaynaqlanıb. Atası akademik Arif Paşayevin, anası professor Aida İmanquliyevanın elmə xidmət ənənəsini Nərgiz xanım uğurla davam etdirərək, biri-birini əvəzləyən elmi uğurlarına imza atır. Ədəbiyyatşünas-alim, təhsil qurucusu - müəllim, beynəlxalq səviyyəli ictimai xadim... Daim axtarış və nailiyyətlər.

## FƏDAKAR ƏMƏYİN VƏ ELMİN NAİLİYYƏTLƏRİ

N.Paşayevanın "Əgər hər hansı bir epoxaya qayıtmaq imkanınız olsaydı hansını seçərdiniz" sualına cavabı maraqlı olub: "Mən 300-500 il əvvələ düşmək istərdim. Orada hər şeyə baxmaq maraqlı olardı. Xüsusən, hansı incəsənət növlərinin yarandığına baxmağa. Maraqlı olardı ki, gələcək insanın bədii düşüncələri, təfəkkürü hansı metodlar və imkanlar hesabına ifadə olunacaq. Amma bir şeyə şübhə etmirəm: İnsanlar öz əvvəlki mahiyyətində qalacaqlar". Deməк, ziyalı bir insanda öyrənmək keçmiş, bu gün və gələcəklə bağlı düşüncələr fövqündə idrakın gücünü görmək maraq doğurur.

Nərgiz Paşayeva maraqlı və zəngin bir tərcümeyi-halın müəllifidir. 13 dekabr 1962-ci ildə Bakı şəhərində anadan olan Nərgiz xanım 1968-1978-ci illərdə Bülbül adına orta ixtisas musiqi məktəbində təhsil alıb. 1978-ci ildə BDU-nun Filologiya fakültəsinin əyani şöbəsinə daxil olaraq, 1983-cü ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirib. 1983-cü ildə əyani aspiranturaya qəbul olmuş və "Sabirin novatorluğu" adlı dissertasiya işini vaxtından əvvəl tamamlamış və müvəffəqiyyətlə müdafiə edib. 23 sentyabr 1987-ci ildə filologiya elmləri namizədi alimlik dərəcəsi alıb. 1987-ci ilin mart ayından Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin "Azərbaycan ədəbiyyatı tarixi" kafedrasında assistent, müəllim, baş müəllim, dosent vəzifələrində, 1994-2008-ci illərdə isə Bakı Musiqi Akademiyasının "Dil və ədəbiyyat" kafedrasının müdiri vəzifəsində çalışıb.

2004-cü ildə "Müasir Azərbaycan ədəbiyyatında insanın bədii-estetik dərki (xalq yazıçısı Elçinin yaradıcılığı əsasında)" adlı doktorluq dissertasiyası işini müvəffəqiyyətlə müdafiə edib.

11 fevral 2005-ci ildə filologiya elmləri doktoru alimlik dərəcəsinə, 30 mart 2005-ci ildə isə professor elmi adına layiq görülüb. 2006-2008-ci illərdə Bakı Dövlət Universitetində Beynəlxalq əlaqələr üzrə prorektor vəzifəsində işləyib. 2007-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 23 iyun 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə M. V. Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialına rektor təyin olunub. 2009-cu ilin oktyabr ayından Bakı Dövlət Universitetinin "Klassik Azərbaycan ədəbiyyatı" kafedrasının müdiridir. 2 may 2017-ci ildə AMEA-nın həqiqi üzvü, 8 iyun 2018-ci ildə isə AMEA-nın vitse-prezidenti seçilmişdir. 27 fevral 2019-cu ildə Nərgiz Paşayeva akademik V. Sadovniçinin təqdimatına əsasən, Rusiya Təhsil Akademiyasının akademiki (xarici üzvü) seçilib.

Fədakar əməyinin və elmi nailiyyətlərin nəticəsi olaraq 18 noyabr 2008-ci ildə Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Rusiya Beynəlxalq elmi və mədəni əməkdaşlıq Mərkəzi tərəfindən Rusiya-Azərbaycan dostluq və əməkdaşlıq münasibətlərində göstərdiyi xidmətlərə görə "Dostluqda göstərdiyi xidmətlərə görə" nişanı ilə təltif olunub. Azərbaycan Respublikası Prezidentinin 30 avqust 2009-cu il tarixli Sərəncamı ilə Azərbaycan elminin inkişafında göstərdiyi xidmətlərə görə, Əməkdar elm xadimi fəxri adına layiq görülüb. Macarıstanın Prezidenti Pal Şmidtin 11 mart 2012-ci tarixli Sərəncamı ilə professor Nərgiz Paşayeva 30 aprel 2012-ci ildə Macarıstanın dövlət mükafatı ilə - "Xidmətlərə görə" Komandor xaç ordeni ilə təltif edilib. Azərbaycan və Fransa əməkdaşlığının inkişafında göstərdiyi aramsız fəaliyyətinə görə 2013-cü ildə zabit dərəcəli "Akademik Palma" fransız ordeni ilə təltif olunmuşdur. Bu yüksək mükafatı Fransanın Azərbaycandakı səfiri Paskal Monye təqdim edib.

19 aprel 2017-ci ildə müstəqillik illərində Azərbaycanda elm və təhsil sahəsində həyata keçirilmiş mühüm beynəlxalq layihə olan Oksford Universitetində Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin yaradılması və səmərəli fəaliyyətinin təmin edilməsindəki müstəsna xidmətlərinə görə Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Qızıl medalına layiq görülmüşdür.

Belə ki, bir çox mükafatların daşıyıcısı Nərgiz xanım Azərbaycanda elm və təhsilin inkişafında böyük xidmətlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Şərəf" ordeni ilə də təltif edilib.

## DÜNYANIN ALİ MƏKTƏBLƏRİ ÜÇÜN ÖRNƏK

Oksford Universitetinin Nizami Gəncəvi adına Elmi Mərkəzinin və onun Azərbaycan tərəfdən rəhbəri akademik Nərgiz Paşayevanın həyata keçirdiyi və müstəqil Azərbaycanın dünya miqyasında tanıdılmasına xidmət edən möhtəşəm, fundamental, tarixi həqiqətlərə söykənən işlər, sözün həqiqi mənasında, tarixi hadisələrdir. Nərgiz xanım Paşayeva çıxışlarının birində qeyd edir: "Oksford Universitetinin Şərqşünaslıq fakültəsində aparılan elmi-tədqiqat işləri dünyanın digər ali məktəbləri üçün bir örnəkdir. Qərb dünyasının ən nüfuzlu bu tədris ocağında hər hansı həqiqəti dünyaya çatdırmaq istəyən xalq, əvvəlcə öz qədim və zəngin keçmişini ortaya çıxarmalı, əsaslı elmi işlər aparmalı, ciddi və zəhmətkeş tələbələr yetişdirməlidir. Yalnız bundan sonra həmin xalq dünyada elm sahəsində mövqe tutub, söz deməyi bacara bilər".

Bütün bunlarla yanaşı, o, bir sıra kitab və monoqrafiyaların müəllifidir. "İnsan bədii tədqiq obyekti kimi (xalq yazıçısı Elçinin yaradıcılığı əsasında)", "Antik ədəbiyyat tarixi", "Qədim Roma ədəbiyyatı", "Dünya deyilən sənmişsən", "Ədəbiyyatda lirik növ" "Şərq və Qərb: ümumbəşəri ideala doğru: fəlsəfi etüdlər" və s. müəllifidir.

Onun nailiyyət və uğurları olduqca zəngindir. Onun həyat yolunu səhifələdikcə bu ömrün zəngin irsində fədakar bir elm xadimlərinin nailiyyətləri ilə tanış olursan.

***Zümrüd BAYRAMOVA***





# Azərbaycanın qlobal iqlim dəyişikliyinə qarşı mübarizəyə töhfəsi

## Prezident İlham Əliyev: "Təmiz ətraf mühit və yaşıl inkişaf bizim milli prioritetlərimizdir"

Azərbaycanın dünyanın ən inkişaf etmiş ölkələri sırasındadır. Ölkəmiz öz gözəlliyinə, inkişafına və digər keyfiyyətlərinə görə diqqət mərkəzindədir. Ölkəmizdə son illər ardıcıl olaraq çox nüfuzlu beynəlxalq tədbirlərə, toplantılara ev sahibliyi edir. Beynəlxalq tədbirlərə ev sahibliyi etməkdə maraqlı olan Azərbaycan dövləti bu toplantıların yüksək səviyyədə keçirilməsinə böyük şərait yaradır. Azərbaycanın dövlət maraqlarına uyğun şəkildə həyata keçirilən bu tədbirlər ölkəmizin dünyadakı nüfuzunu günü-gündən daha da sarsılmaz edir. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin dövlət maraqlarımıza uyğun formada keçirilməsi də təqdirəlayiqdir. Siyasi sabitlik, dinamik sosial-iqtisadi inkişaf, cəmiyyətimizin demokratikləşməsi, nəhəng enerji və nəqliyyat layihələrinin reallaşması, eləcə də, informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, rabitənin inkişafı sahəsində nailiyyətlər Azərbaycanın qabaqcıl ölkələr sırasına çıxmasına imkan yaradıb. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un gələn il Azərbaycanda keçirilməsi əlbəttə ki, ölkəmizə olan daha bir ehtiramın təzahürüdür. Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etməsi Prezident İlham Əliyevin növbəti təntənəli qələbəsidir. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda, son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır.

### "BƏRPAOLUNAN ENERJİ AZƏRBAYCANDA GENİŞ VÜSƏT ALMAĞA BAŞLAYIR"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar rəsmi sosial şəbəkə hesablarında paylaşım edib. Paylaşımda qeyd olunur ki, Azərbaycan iqlim dəyişikliklərinə qarşı qlobal mübarizəni sistemli olaraq dəstəkləyir və enerji səmərəliliyi ilə bağlı tədbirlər görür: "Təmiz ətraf mühit və yaşıl inkişaf bizim milli prioritetlərimizdir. Bərpaolunan enerji Azərbaycanda geniş vüsət almağa başlayır. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) 2024-cü ildə ev sahibliyi etməyimiz iqlim dəyişikliklərinə qarşı mübarizə üzrə qlobal səylərə öz töhfəmizi vermək əzmimizdən irəli gəlir. Azərbaycanın namizədliyinə verilən dəyərli dəstəyə görə bütün ölkələrə səmimi təşəkkürümü bildirirəm".

Qeyd edək ki, COP29 gələn ilin noyabr ayında keçiriləcək.Vurğulayaq ki, Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir. Azərbaycan Respublikasının Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "Yaşıl enerji" zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəflərin Konfransı - COP Konvensiyasının ali qərar qəbul edən orqanıdır. Katibliyi Bonnda yerləşir. Hər il dünyanın hər yerindən hökumət nümayəndələri COP-da toplaşaraq iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylər göstərmək üçün çağırışlar edir. COP-un ilk toplantısı 1995-ci ildə Berlin şəhərində keçirilib.

### AZƏRBAYCAN PLATFORMASINDAN BAXIŞ

Bildiyimiz kimi, COP-28-in gündəliyinə böyük maraq var idi. Buna görə də belə bir tədbirin keçirilməsində ölkəmizin üzərinə çox böyük məsuliyyət düşür. Belə böyük tədbirin keçirilməsi çox məsuliyyətli və çox maraqlı bir proses olacaq. COP29 çərçivəsində bütün dünyada gedən proseslərə, o cümlədən iqlim, həm digər yaşıl ideyalar, yaşıl proqramla bağlı məsələlərə Azərbaycan platformasında baxılacaqdır.

Xatırladaq ki, COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərar COP28-in dekabrın 11-də keçirilən plenar iclasında verilib. Azərbaycan Prezidenti İlham Əliyevin nümayiş etdirdiyi güclü siyasi iradə və Şərqi Avropa Qrupunun üzvü olan dövlətlərin Azərbaycanın COP29-a ev sahibliyi etmək üçün ölkəmizin namizədliyini dəstəkləməsi uğurumuzda mühüm əhəmiyyət kəsb edir.

COP-a ev sahibliyi bir qayda olaraq BMT-nin beş regional qrupu arasında rotasiya edir. Hər regional qrup, üzvlərindən bu konfransı təşkil edəcək bir ölkəni irəli sürmək üçün konsensusla qərar qəbul etməlidir. 2024-cü il COP29-a ev sahibliyi etmək növbəsi Şərqi Avropa regional qrupuna düşmüşdü. Sözügedən qrupa daxil olan ölkəmiz konfransın Azərbaycanda keçirilməsi ilə bağlı namizədliyini irəli sürmüşdü. Azərbaycanla yanaşı, Ermənistan və Bolqarıstan da namizədliklərini vermişdilər. Dekabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Baş nazirinin Aparatı arasında aparılmış birbaşa danışıqların nəticəsi olaraq verilmiş birgə bəyanatda Ermənistan Azərbaycanın xeyrinə öz namizədliyini geri çəkib. Bundan sonra Bolqarıstan da öz namizədliyini geri götürüb. Beləliklə, dekabrın 9-da Şərqi Avropa regional qrupu Azərbaycanı 2024-cü ildə COP-a ev sahibliyi edəcək ölkə kimi müəyyənləşdirib.

1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını ratifikasiya etdikdən sonra qlobal iqlim dəyişmələrinin mənfi təsirlərinin yumşaldılması üzrə beynəlxalq səylərə qoşulan Azərbaycan beynəlxalq ekoloji təşəbbüslərdə mühüm rol oynayıb. Dubaydakı COP28 sammitində Azərbaycanın yüksək səviyyədə təmsil olunması bunun daha bir təzahürüdür. COP28 sammitində Azərbaycanın fəal iştirakı əlbəttə ki, ölkəmizin qlobal iqlim dəyişikliyinə qarşı mübarizəyə töhfə verməsinə əsaslanır.

Cənab Prezidentin paylaşımında qeyd etdiyi kimi, COP29 sessiyasının uğurlu hadisəyə çevrilməsi üçün əlimizdən gələni edəcəyik.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Hüseyn Axundov və Aqşin Bəbirov əsirlikdən azad olunublar



**Dünən Qazax rayonunda Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında hərbçilərin qarşılıqlı surətdə azad edilməsi prosesi baş tutub. Proses zamanı Ermənistan tərəfindən Azərbaycanın 2 hərbi qulluqçusu - Hüseyn Axundov və Aqşin Bəbirov azad olunub. Azərbaycan tərəfi isə erməniəsilli 32 şəxsi qarşı tərəfə təhvil verib.**

Qeyd edək ki, cari ilin aprel ayında Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən Azərbaycan Ordusunun itkin düşmüş əsgərləri - 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu Ermənistan tərəfindən əsir götürülmüşdü.

Dekabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında aparılmış danışıqlar nəticəsində humanizm prinsipinə sadiqlik ruhunda, xoş niyyət göstəricisi olaraq iki ölkə arasında qarşılıqlı etimad tədbiri kimi hərbçilərin azad edilməsi barədə razılıq əldə olunub.

# Makron "miqrant" tələsində

## "Sağlar" və "sollar" hakimiyyətə qarşı birləşdi

**İmmiqrasiya haqqında qanun layihəsi dekabrın 11-dən etibarən Milli Assambleyada müzakirə edilməli idi. Lakin müzakirə başlamazdan əvvəl Yaşıllar Partiyasının solçuları təşəbbüsün müzakirəsindən imtina məsələsini səsverməyə çıxarıblar və cəmi beş səs fərqi ilə də olsa qalib gəliblər: 270 əleyhinə, 265 lehinə. Üstəlik, yeni parlamentin tarixində ilk dəfə səsvermə sol cinahı ifrat sağçılarla birləşdirdi. Milliyyətçi Birliyin rəhbəri Marin Le Pen görünməmiş bir hərəkətlə "Fəthedilməmiş Fransa" partiyasının rəhbəri Jan-Luc Melenşonu öz tərəfinə çəkə bildi.**

Qanunun təşəbbüskarları - prezident Emmanuel Makron və onun bilavasitə icraçısı, daxili işlər naziri Cerald Darmanin çox həssas yerlərindən zərbə alıblar. Qanun layihəsi hələ müzakirədən əvvəl uğursuzluğa düçar oldu. Gerald Darmanin həmin gün istefa ərizəsini təqdim edib. Prezident isə onun xahişini təmin etməkdən imtina edib. Sollar və sağlar qanun layihəsi ilə bağlı fərqli şeylərdən narazı idilər. Birincinin nöqteyi-nəzərindən sənəd amansızcasına qəddar, ikincinin nöqteyi-nəzərindən mənasız dərəcədə yumşaq idi. Qanunvericilik Komissiyası, həqiqətən də Senat tərəfindən çox sərtləşdirilmiş bir layihə qəbul edərək, hüququ qəzəbləndirən mövqeləri ona qaytardı. Məsələn, qeyri-qanuni mühacirlərə fransızların almaq istəmədiyi iş yerlərində işləməyə rəsmən icazə verilməsi təklif edilib.



Sağlar bunun qeyri-qanuni immiqrantlar






üçün "fit çalmaq" demək olduğunu hiss edib və "əlehinə" səs verib. Sollar isə qanun layihəsinin fundamental insan hüquqlarını pozduğuna qərar verib. Onlar da "əleyhinə" səs veriblər.

Necə ki, prezident seçkiləri öncəsi bir vaxtlar sağ və solçular Marin Le Penə qarşı birləşiblərsə, indi solçular və ifrat sağçılar eyni inkarda hakimiyyətə qarşı birləşib. Təsadüfi deyil ki, müşahidəçilər Marin Le Pen və Jan-Lyuk Melenşonun yeni prezident seçkilərinin finalında görüşəcəyi, fransızları "kirpi ilə ilan arasında" seçim etməyə məcbur edən hipotetik vəziyyətdən dəhşətlə danışmağa başlayıblar.

Hökumətin dörd variantı var və "hər biri daha pisdir". Birincisi, hakimiyyət yeni variantın Milli Assambleyaya daha uyğun olacağına ümid edərək qanun layihəsini ikinci oxunuş üçün Senata geri göndərə bilər. Amma çox güman ki, qanun layihəsi yenidən senatorların əlində sərt anti-immiqrant sənəd formasını alacaq.

İkincisi, hökumət öz planından əl çəkə bilər. Amma görünən odur ki, o, buna hazır deyil. Assambleyanın iqtidaryönlü fraksiyası artıq qanun layihəsinin dinləmələrə qaytarılmasının tərəfdarıdır və Gerald Darmanin "qeyri-təbii ittifaqa" girən "siyasətçilərin oyunları" ucbatından hökumətin öz vəzifəsini qoruyub saxlamasından təəssüfləndiyini bildirib və bunu yalnız "fransızları qorumaq əvəzinə vaxt itirmək" kimi dəyərləndirib.

Üçüncüsü, prezidentin çıxılmaz vəziyyətdən radikal çıxış yolu var. O, növbədənkənar seçkilər təyin etməklə parlamenti buraxa bilər. Amma indiki vəziyyətdə Emmanuel Makron onsuz da zəifləmiş mövqeyini itirmək riski ilə üzləşir. Milli Ralli partiyanın baş katibi Cordan Bardell vasitəsilə artıq yeni parlamentdə çoxluğu qazanmağa hazır olduğunu bildirib. Gənc siyasətçi yeni koalisiya hökumətində baş nazir postunu əvvəlcədən təyin etməyə hazırdır. "Hökumətin istefası" və "seçki qutusuna qayıdış" çağırışı edən Jan-Lyuk Melenşon da yeni seçkilərə həvəslə gedəcək.

Bu gün hökumət barışıq komissiyası çağırmağa meyllidir. Bu, iki palata arasında ziddiyyətlər olduqda baş verir. Bu zaman yeddi senator və yeddi deputat iki variantı keçərək mübahisə edənləri barışdırmağa çalışır. Ancaq bunun üçün solçular və sağçılar kompromis axtarışına hazır olduqlarını nümayiş etdirməlidirlər. Nə biri, nə də digəri hələ buna hazır deyil.

***V.VƏLİYEV***

# Yeni İl yarmarkalarında son vəziyyət necədir? - REPORTAJ



***Bakının müxtəlif yerlərində yeni il yarmarkaları qurulub. SİA 28 may metrosunun ətrafında yeni il yarmarkaları ilə əlaqədar reportaj hazırlayıb.***

Bakının yeni il ovqatını satıcıların və alıcıların gözündən sorğu və fotoşəkillərlə təqdim edirik:

**Satıcı Cəlil Rəcəbli:** "Hal-hazırda dekabr ayının 11-i olduğu üçün satış bir az zəifdir. Dekabrın 22-si, 25-dən sonra güclənəcək. Amma biz ümid edirik ki, bayramda



yaxşı olacaq. Çünki Azərbaycan xalqı həmişə bayramı daha yaxşı qarşılayıb. Həmişə olduğu kimi, bu il də bayramımız yaxşı keçəcək. İndi qiymətlərimiz yaxşıdır, amma bayram öncəsi bir az qiymət artımı ola bilər. Bu da rəqiblərin çoxalması ilə əlaqədardır. Digər sahələrdə əksinə, rəqib çoxaldıqca qiymət azalır, bizdə isə qiymət artır. İnsanlar bayram əhval-ruhiyyəsinə girdikləri üçün qiymətlərdən şikayətlənmirlər".

**Satıcı Füzuli Ağamalıyev:** "Satışlar normaldır. İnsanlar qiymətlərdən məmnun-



dur. Satıcılar qiyməti imkanla əlaqədar nəzərə alır ki, alıcılar da ala bilsinlər. Hər iki tərəf razılıq bildirir. Bayrama hələ vaxt var, satışlar normaldır. Camaatın imkanına görədir".

**Şəhər sakini Sevil Ruhi:** "Qiymətlərdən razı deyiləm. Çox bahadır. Məcbur gəlmişəm. Çünki vaxtım olmadı ki, "Trendyol"dan sifariş edim. Orada çox ucuzdur. Yeni ili həmişəki kimi ailə içində keçirəcə-



yik. Ailəvi bayramdır. Yeni illə bağlı yeni planlarım yoxdur. Yolka almışıq. Evdə iki uşaq var. Hamısını uşaqlara görə alırıq".

**Satıcı Əzim Hüseynov:** "Alıcılıq qabiliyyəti zəifdir. Bununla belə, yenə də, xalqa xidmət edirik. Allah xalqımızı var eləsin, bayramlarını mübarək etsin. Prezidentimiz var olsun ki, bizə bu qabiliyyəti yaşatdı. Mən də I Qarabağ müharibəsi iştirakçısıyam. Başqa hər şey yaxşıdır. Yəqin ki, hər şey düzələr. Qiymətlərimiz münasibdir, top-



dan satış qiymətləridir. Bizdə şirniyyat və quru meyvələr satılır. Bununla fəaliyyət göstəririk".

**Satıcı Epunus Məmmədov:** "Alıcılıq qabiliyyəti normaldır. Camaat gəlir, alır, qiymətlərdən razıdırlar. İnsanlarda yeni il həyəcanı var. Ən çox yaşlı insanlar bazarlıq edir. Nəvələri üçün alış-veriş edirlər. Qiy-



mətlərdən razıdırlar".

**Şəhər sakinləri ana-oğul Lalə Səlimova və Əli Səlimzadə:** "Mən yeni ili sevirəm, çox xoşlayıram. Bəlkə də, uşaqlardan da çox sevirəm. Həmişə sevinclə hər şeyi almaq, bəzəmək istəyirəm. Sevdiyim bayramdır. Yeni il həyəcanını digərlərində bilmirəm, özümdə hiss edirəm. Qiymətlər münasibdir. Hərənin büdcəsinə görədir. Az büdcəsi olan üçün bahadır, normal büdcəsi olan üçün normal qiymətlərdir".

**Əli Səlimzadə:** "Mən 7-ci sinifdə oxuyuram. Yeni il üçün həyəcanlıyam. Hələ yolkanı qurmamışıq. Böyüklüyü 2 metrdir. Bayrama az qalmış quracam. Yolkanın oyuncaqlarını keçən il almışıq. Sinif yoldaşlarım da mənim kimi yeni ili həyəcanla qarşılayırlar".

**Şəhər sakini Azılara Əliyeva:** "ADNSU universitetində 3-cü kurs tələbəsiyəm. Hədiyyə alıram. Yolka hələ qurmamışıq. Qiymətlərdən razı deyiləm. Çünki biz tələbəyik. Stependiyamız da azdır. Anama, atama, dostlarıma - hamıya hədiyyə almalıyam.



Amma pulumuz çatmır. Hər şey çox bahadır. Stependiyamız heç nəyə çatmır, yemək, başqa ehtiyaclarımızı da almalıyıq, həm də hədiyyə almalıyıq. Yeni illə bağlı fərqli planım yoxdur, həyəcan da yoxdur. 2023-cü ili çox gözəl keçirmişəm, ona görə də yeni ilin gəlməsini istəmirəm".

**Şəhər sakini Ülvi Vəliyev:** "Qiymətlərdən razıyam. Yeni illə bağlı fərqli planım yoxdur, həmişəki kimi keçirəcəm. Yolka qurmuşuq, hədiyyələr almışıq. Evdə uşaqlar var, hələ ki, təhsil alırlar, bayrama vaxt var".

***Söylü Ağazadə***

## Sülhə maneçiliyin Ermənistan üçün vəd etdiyi

# TƏHLÜKƏ

***Son hadisələr onu deməyə əsas verir ki, uzun müddət ərzində ilk dəfə olaraq, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin tezliklə imzalanmasına ümid etməyə dəyər. Çox güman ki, Ermənistan cəmiyyətinin Azərbaycanla sülhə tədricən adaptasiya olunması üçün bir qədər vaxt tələb olunurmuş. Bəlkə də Nikol Paşinyan elə özü də bu zamana qədər hansısa qəti addımlar atmaqdan, sözün əsl mənasında qorxub, çəkinib, çünki erməni cəmiyyətində hansısa bir şəkildə "qəzəbə tuş gələcəyindən" ehtiyatlanıb.***

Görünür, erməni xalqının köhnə fikirləri bir tərəfə ataraq, Azərbaycana qarşı düşmənçilik paradiqmasını dəyişməyə hazır olması qənaətinə gəlinib ki, rəsmi İrəvan sülh danışıqları barədə müzakirələri intensivləşdirmək qərarına gəlib. Yaradılan miflərin boş və mənasız olmasını, düşmənçilik fikirlərinin tamamilə yersiz və lazımsız olduğunu deyəsən, erməni cəmiyyətinin dərk etdiyini düşünənlərin sayı Ermənistanda çoxalıb. Əslində, erməni cəmiyyətinin qəflət yuxusundan ayılması, mifləri bir yana qoyub reallıqları görməsi üçün kifayət qədər vaxt, zaman da keçib. Bununla yanaşı, axı Azərbaycan Ordusu da onların qəflət yuxusundan ayılmalarını tezləşdirdi və reallıqların nədən ibarət olduğunu tam açıq şəkildə, özü də ən parlaq müstəvidə ortaya qoydu. Bir sözlə, erməni cəmiyyətinin həqiqətən də artıq reallıqları görməsinin, dərk etməsinin tam zamanıdır və ağlı başında olan erməni bundan sonra qəflət yuxusuna qətiyyən meyl etməz. Amma deyəsən, ağlını başına toplaya bilməyənlər də qalıb və prosesə mane olmaq fikrində olanlar nəyə isə nail olmaq niyyətindədirlər. Hər halda, zaman göstərər...



Ermənistan Milli Assambleyasının maliyyə, kredit və büdcə məsələləri üzrə daimi komissiyasının rəhbəri, hakim "Mülki Müqavilə" partiyasından olan deputat Gevorq Papoyan jurnalistlərlə söhbəti zamanı Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasını pozmaq üçün istənilən təxribatlara əl atmağa hazır olanların adlarını çəkib. O, xüsusilə vurğulayıb ki, Ermənistanın ikinci və üçüncü prezidentləri, keçmiş Qarabağ separatçıları Robert Koçaryan və Serj Sarkisyan Ermənistan dövlətçiliyi altına mina, partlayıcı qoymağa çalışırlar. "Ermənistanda qondarma "Qarabağ parlamenti"nin iclasını keçirmək istəyirlərmi? Bu, Ermənistana qarşı olan bombadır və sadəcə olaraq, qəbuledilməzdir", deyən Papoyan qəzəbini gizlədə bilməyib və hətta bildirib ki, 29800 kvadrat kilometr ərazisi olan Ermənistan Respublikası onlar üçün hazırda ən önəmli olandır. Erməni deputat həmçinin sual da ünvanlayıb ki, onlar Qarabağda hər şeyi dağıtdıqları kimi, indi də Ermənistanda belə etmək istəyirlər? Deməli, Qarabağı dağıtdıqlarını məhz erməni cəmiyyətində başa düşənlər, etiraf edənlər də var, baxmayaraq ki, aralarında hələ də münaqişəni qızışdırmaq niyyətində olanlar da az deyil. Yəqin ki, indi həmin o münaqişəni qızışdırmaq istəyənlər barədə müvafiq planlar da var...

Doğrudur, Ermənistan hakimiyyətinin bu vaxta qədər sərgilədiyi mövqe, ələlxüsus da erməni baş nazir Nikol Paşinyanın, "Qarabağ Ermənistandır, nöqtə", deməsi də yaddaşlardan silinən deyil. Amma məsələ burasındadır ki, 44 günlük müharibənin məntiqi nəticəsi olaraq, Ermənistanın rüsvayçı şəkildə məğlub olmasından sonra həmin ölkənin hakimiyyətinin də, baş nazir Nikol Paşinyanın da düşünməsi, reallığı dərk etməsi üçün kifayət qədər vaxtı olub. Hətta 23 saatdan bir qədər artıq müddət ərzində antiterror tədbirləri ilə qanunsuz erməni silahlı birləşmələrinin tərksilah edilməsi, onların təslim olmaları, ağ bayraq qaldırmaları, ərazilərimizi tərk etmələri, Azərbaycanın öz ərazi bütövlüyünü tam şəkildə bərpa etməsi də rəsmi İrəvan üçün kifayət qədər təsirli dərs hesab olunur. Azərbaycanın ərazi bütövlüyünü tanımağa məcbur olan Nikol Paşinyan və onun komandası görünür, indi reallığı nəinki görmək, hətta etiraf etməkdən başqa çarə tapmır və sülh danışıqlarını intensivləşdirmək niyyəti də bu baxımdan, heç də səbəbsiz deyil.



Hadisələrin düzgün istiqamətdə getdiyini müşahidə edirik və sülhün təminatı üçün bunun əsas şərt olduğu da bəllidir. O da bəllidir ki, müşahidə etdiyimiz proseslər bütövlükdə Cənubi Qafqaz üçün faydalıdır. Azərbaycan Prezidenti Administrasiyası və Ermənistan Baş Naziri Aparatının, ölkələr arasında böyük sülh sazişinin imzalanması üçün mühüm zəmin yaradan birgə bəyanatının sülh prosesi üçün nə dərəcədə əhəmiyyətli olduğu da məlumdur. Deməli, sülh danışıqları prosesi barədə nikbin düşünmək olar.

Sözsüz ki, istər Ermənistanın daxilində, istərsə də xaricində prosesə mane olmaq istəyən qüvvələr hələ də var. Onları nəzərə almamaq da mümkün deyil. Bu gün erməni cəmiyyətində Koçaryan və Sarkisyan kimi cinayətkar rejimin hələ də azadlıqda gəzən nümayəndələri var və onlar "son nəğmə"lərini oxuduqlarını özləri hamıdan yaxşı bilirlər. Yaxşı bilirlər ki, onlar da elə Arutyunyanın, Saakyanın, Qukasyanın yanında istənilən anda otura bilərlər və buna görə də kürklərinə birə düşdüyü elə uzaqdan da hiss olunur. Məhz belə bir qorxu altında olan həmin o cinayətkar rejimin hələlik azadlıqda olan ünsürləri aranı qarışdırmaq üçün əllərindən gələni əsirgəmirlər. İndi həmin o əvvəlcədən qeyd etdiyimiz erməni deputatın misalında hər bir hay başa düşməlidir ki, onlar Ermənistanın altına partlayıcı, mina qoymaq fikrindədirlər və məqsədləri də ancaq özlərini xilas etməkdir. Onlar üçün Ermənistan dövləti və erməni xalqı zərrə qədər də maraqlı deyil. Bax elə həmin ünsürlər bilirlər ki, sülh müqaviləsi bağlandıqdan sonra onlar öz cinayət əməllərinə görə qanun qarşısında cavab verməli olacaqlar. Məhz elə buna görə də bütün vasitələrlə prosesə maneçilik törətmək niyyətindədirlər və bunu da nəzərə almamaq mümkün deyil. Çünki ən azından, onları dəstəkləyən, həm də arxalarınca gedən hansısa qüvvələr də var. Bir sözlə, Ermənistanın öz daxilində belə sülh gündəliyinə mane olacaq qüvvələr var və onların da əksəriyyəti məhz xaricdən dəstək alırlar.

Sözsüz ki, sülh yolunda "tikan" kimi bitən xarici fakorlar da diqqətdən yayına bilməz. Məsələn, müşahidələr təsdiq edir ki, Fransanın timsalında bəzi Avropa ölkələri işğalçı Ermənistanı silahlandırmaqla, yaxud, hansısa dəstək variantı ilə ruhlandırmaqla, sülh danışıqlarına lap əvvəldən mənfi təsir göstərməkdədirlər. ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin 30 ilə yaxın müddət ərzində münaqişənin həlli istiqamətində bircə dənə də olsun nailiyyət əldə etməməsi bir yana, onların məhz 44 günlük müharibə dönəmində də, müharibədən sonra da münaqişənin həllində maraqlı olmamaları dəfələrlə öz təsdiqini tapıb. Hər halda, BMT kimi bir mötəbər beynəlxalq təşkilatın Azərbaycanın xeyrinə qəbul etdiyi məlum qətnamələri belə nəzərə almayan həmsədr ölkələr heç olmasa, müharibə bitdikdən, Azərbaycan bu qətnamələrin icrasını özü reallaşdırdıqdan sonra da olsa, sülh müqaviləsi, sülh danışıqları məsələsində maneə olmamalı idilər. Amma biz bunun əksini müşahidə etdiksə də Azərbaycan öz haqq yolundan zərrə qədər də geri addım atmadı. Hansısa bir qüvvə rəsmi Bakının iradəsinə təsir edə bilmədi. Təhdid dili ilə danışmağa çalışılsa belə, bunun doğru və təsirli yol olmadığını Azərbaycan öz əməli addımları ilə sübut etdi. Sübut etdi ki, dövlətçilik tarixlərinə, beynəlxalq təcrübələrinə və BMT Təhlükəsizlik Şurasına üzv olmalarına belə baxmayaraq, yanılıblar. Bununla belə, unutmaq lazım deyil ki, Azərbaycan bu yolda çox böyük maneələrlə qarşılaşmalı olub və hələ bundan sonra da hansısa maneə və çətinliklərin qarşıya çıxa biləcəyi də istisna edilə bilməz. Çünki sülh gündəliyinə, ümumiyyətlə, prosesə mane olmaq istəyən qüvvələr həmişə olduğu kimi, yenə də var.

Bəli, Azərbaycan sülh gündəliyinə, sülh prosesinə həmişə olduğu kimi, sadiqdir. Qalib ölkə olmasına rağmən sülh təklifi ilə çıxış edən Azərbaycan, bunun bütövlükdə Cənubi Qafqaz üçün nə dərəcədə əhəmiyyətli olduğunu nəzərə alaraq, öz təklifində israrlıdır. Amma ermənilər də başa düşməlidirlər ki, sülh artıq bütün qonşu ölkələrdən məhz elə Ermənistan tərəfi üçün daha çox lazımdır. Başa düşməlidirlər ki, sülh gündəliyinə mane olanlar onların siyasi mövcudluqlarına, dövlətçiliklərinə mane olmuş olurlar. Dərk etməlidirlər ki, istər öz ölkələri daxilində, istərsə də ölkə hüdudlarından kənarda onları qızışdıran, sülh prosesindən yayınmağa sövq edənlər bütövlükdə Ermənistanı, erməni cəmiyyətini məhvə sürükləyirlər. Çünki sülhə mane olmaq istəyi Ermənistan üçün partlayış təhlükəsi vəd edir. Artıq erməni cəmiyyəti bu təhlükəni özü də hiss etməkdədir və hakim partiyanın deputatının həyacanlı çıxışı bunu təsdiq edir. İstənilən zaman hansısa kənar qüvvələrin yarada biləcəyi toqquşma, vətəndaş qarşıdurması heç bir ölkə üçün arzuolunan deyil, amma səfalət içərisində və xaotik durumda olan Ermənistan üçün bu hal ümumiyyətlə, fəlakət deməkdir. Yəqin ki, işğalçı ölkənin paytaxtında, İrəvanda silahlar işə düşməli olsa, qarşıdurmaların fonunda Ermənistanın siyasi mövcudluğu sual altında qalmalı olacaq. Çox güman ki, erməni cəmiyyəti belə bir təhlükənin fərqindədir və rəsmi İrəvanın sülh danışıqları barədə müzakirələri intensivləşdirməsinin, sülh prosesinə töhvə verə bilən doğru qərarlar qəbul edilməsinin tam zamanıdır.

**İnam Hacıyev**

# 2024-cü il trendləri və əsas fiqurlar

*SİYASİ PROQNOZ*

**Noyabr ayında İngiltərənin nüfuzlu həftəlik "The Economist" jurnalı "Future World" rubrikasının redaktoru Tom Standagenin 2024-cü ildə izlənməsi məsləhət görülən on tendensiya haqqında köşə yazısını dərc edib. Qısaca, onlara nəzər yetirək:**

- 70-dən çox ölkədə təxminən 4,2 milyard insanın iştirak edəcəyi seçkilər keçiriləcək. Bu seçkilər dünyada demokratiyanın vəziyyətini müəyyən edəcək;
- Donald Trampın ABŞ seçkilərində mümkün qələbəsinin dünya üçün nəticələri;
- Avropanın Ukraynaya dəstəyi, xüsusən Tramp ABŞ seçkilərində qalib gəlsə və Vaşinqtonun Kiyevə yardımını azaldacaq;
- Yaxın Şərq: regionda münaqişə böyüyəcək, yoxsa sülh üçün yeni şans verəcək;
- "Çoxqütblü pozğunluq": Amerikanın "birqütblü anı" bitdiyi üçün dünya yeni münaqişələrə hazırlaşır;
- İkinci soyuq müharibə. Bunun ilkin şərtləri Çinin artım templərinin yavaşlaması və Tayvan ətrafında gərginliyin artması fonunda ABŞ-ın qabaqcıl texnologiyalara çıxışının davamlı məhdudlaşdırılması ola bilər;
- Təmiz enerjiyə keçid yeni "yaşıl" super güclər yaradır və enerji resurslarının xəritəsini yenidən cızır;
- Dünyada iqtisadi qeyri-müəyyənlik əsasən Çin iqtisadiyyatının deflyasiyaya düşməsi ehtimalı ilə bağlı olacaq;
- Süni intellekt reallığa çevrilir - bunun nəticələrini hələ də proqnozlaşdırmaq çətin deyil;
- Bəlkə də dünya Paris Olimpiadasından, ayın ətrafında uçuşlardan və kişilər arasında Kriket üzrə Dünya Kubokundan həzz alarkən ideoloji fərqlər bir kənara qoyulacaq.









## Trampın qələbəsi və...

Bir qəzet yazısında 10 tendensiyanın hamısını nəzərdən keçirmək və şərh etmək mümkün deyil. Amma iki fövqəldövlətlə - ABŞ və Çinlə bağlı olanlar, şübhəsiz ki, əsas maraq doğurur. 70 ölkədə 4,2 milyard insanın seçkilərə cəlb olunduğu nəticə, son illərdə dünyanın müxtəlif yerlərində ağır zərbələrə məruz qalan demokratiyanın vəziyyətini həqiqətən sınaqdan keçirəcək. Mərkəzi hadisə, şübhəsiz ki, ABŞ seçkiləri olacaq. Artıq bu gün çoxları Trampın onlar üzərində mümkün qələbəsinin nəticələrindən narahat olmadan danışır. "The Economist" başqa bir materialda qeyd edir ki, o, qalib gəlsə, qisas, iqtisadi proteksionizm və teatral ekstravaqant sövdələşmələr istəyi ilə məhdudlaşmayacaq. Və buna görə də Trampın ikinci müddətinin perspektivinin bir çox ölkələrin hökumətlərini və parlamentlərini ciddi şəkildə narahat etməsi təəccüblü deyil. Amma həftəlik yazır ki, Tramp öz ölkəsi üçün ən böyük təhlükədir. Düşmənlərinin arxasınca Tramp məhkəmələr və Ədliyyə Departamenti də daxil olmaqla, onun yolunda dayanan istənilən quruma qarşı müharibə aparacaq.

Trampın gələn il qələbəsi xaricdə dərin nəticələrə səbəb olacaq. Çin və dostları Amerika demokratiyasının iflasa uğramasına sevinə bilərlər. Tramp ABŞ-da qanuni prosesi və vətəndaş hüquqlarını tapdalasa, onun diplomatları onları xaricdə tanıtmaqda çətinlik çəkəcəklər. Qlobal Cənub Amerikanın "doğru şeyi et" çağırışlarının əslində ikiüzlülük məşqi olduğuna dair şübhələrini təsdiqləyəcək.

İlk mandatı zamanı Tramp proteksionist ticarət siyasəti ilə dünyanı şoka saldı. İkinci müddətə seçiləcəyi təqdirdə Trampın proteksionist instinktlərinin heç bir şəkildə məhdudlaşdırılmayacağı şübhəsizdir. Onun ticarət və iqtisadi siyasəti əvvəlkindən daha dağıdıcı ola bilər. Onun komandası artıq bütün idxala 10 faizlik tariflər tətbiq etməyi düşünür ki, bu da hazırkı orta səviyyədən üç dəfə çoxdur. Bu, hələ də bütün dünyada müşahidə olunan beynəlxalq ticarətin universal qaydalarına ölümcül zərbə vurmaq təhlükəsi yaradır.

Tramp çox güman ki, Avropa ilə hesablaşmaya davam edəcək. "Ukraynada müharibəni bir gündə bitirmək" kimi özünə inamlı bəyanatlarının arxasında Brüssel Vaşinqtonun lazım gələrsə, alyans daxilində alyans daxilindəki öhdəliklərindən əl çəkəcəyi təqdirdə NATO-nun dağılması təhlükəsini görür. Yaxın Şərqdə Tramp çox güman ki, Fələstinə dəstək üçün universitet solçularının nümayişlərinə məhəl qoymadan İsraili qeyd-şərtsiz dəstəkləyəcək.

Bir çox müşahidəçilər hesab edir ki, Trampın ikinci dönəmi birinci dönəmdə olmadığı kimi dönüş nöqtəsi ola bilər. O, qalib gəldikdən sonra güclə bağlı ən dağıdıcı instinktlərinə sərbəstlik verəcəkdir. Və Amerika ən pisinin qabaqda olduğunu bilə-bilə ona səs versə, onun dünyadakı mənəvi nüfuzu aşağı düşəcək.

Çinə gəlincə, tendensiyalardan birinə görə, onun mümkün deflyasiyaya doğru sürüşməsi qaçılmaz olaraq dünyada iqtisadi qeyri-müəyyənliyi artıracaq. Çin iqtisadiyyatı son illərdə aydın yavaşlama əlamətləri göstərdi. İyulda qiymətlərdə azalma, eləcə də ixrac və idxalda azalma qeydə alınıb. Bəzi ekspertlərin fikrincə, ölkənin iqtisadi vəziyyəti pisləşir və Çin iqtisadiyyatı gözlənildiyi kimi 2030-cu ilə qədər Amerika iqtisadiyyatını geridə qoya bilməyəcək. Çin artıq 1990-cı illərin əvvəllərində iqtisadi durğunluqla üzləşmiş "itirilmiş onilliklər" dövrünə qədəm qoyan Yaponiya ilə müqayisə edilir. Mövcud vəziyyətdə Pekinin yeni inkişaf sürücülərinə ehtiyacı var. Çox güman ki, onları yalnız kənarda tapmaq olar.

Bu baxımdan təəccüblü deyil ki, San-Fransiskoda bu yaxınlarda keçirilən APEC sammiti çərçivəsində Si Tszinpin təkcə Cozef Baydenlə deyil, həm də Amerika biznesi ilə görüş keçirərək, onları Çinə sərmayə qoymaqda maraqlandırmağa çalışıb. Pekin tam dərk edir ki, xarici tərəfdaşlar arasında yalnız ABŞ və onun biznesi durğunluq tendensiyası ilə Çində mövcud iqtisadi vəziyyəti yaxşılaşdırmağa qadirdir. Çin bazarı yavaşlamağa başlasa, bu həm ABŞ-a, həm də digər ölkələrə təsir edəcək. Ancaq bu, ən çox Rusiyaya təsir edə bilər, çünki bu gün Çin onun üçün əsas xarici iqtisadi tərəfdaşa çevrilib. Çin isə yavaşlasa, əmtəə qiymətləri aşağı düşəcək ki, bu da Rusiya üçün aşkar problemlər yaradacaq.

Siyahıdakı sonuncu tendensiya nikbinliyin orta dozasını təmin edir. Bununla belə, Olimpiya Oyunları, Kriket üzrə Dünya Kuboku və Aya mümkün uçuşlar vaxt məhdud hadisələrdir. Ona görə də qlobal barışığa ümid edənlərin, təəssüf ki, çox şansları yoxdur.

## Amerikalılar təşvişə düşüblər

ABŞ-ın Hind-Sakit Okean regionunda gücünün proyeksiyası ilə bağlı Qərb proqnozları tez-tez Tayvan üzərində dənizdə toqquşmalar nəticəsində Çin və ABŞ arasında müharibənin başlanmasının amerikalılar üçün tutqun ssenarisini təsvir edir. Amma son vaxtlar başqa ssenarilər ortaya çıxıb. Məsələn, Çin hökumətinin daxili qeyri-sabitliyi nəticəsində Hind-Sakit Okean regionunda Çin təsirinin dağılması nəzərdə tutulur. Yaxud SSRİ-nin dağılması ilə müqayisə edilə bilən regional dağılma nəticəsində. Bu cür ssenarilər regionda ABŞ-ın doldurmağa hazır olmalı olduğu bir güc boşluğu yaradır.

Hind-Sakit Okean regionunda müharibə perspektivi geosiyasətçilər və elmi fantastika yazıçıları tərəfindən dəfələrlə təsvir edilmişdir. Lakin bu, həqiqətən də kabus ssenarisi olardı, Qərb ekspertləri deyirlər. ABŞ və Çin arasında açıq müharibə 21-ci əsrdə nüvə gücləri arasında ilk birbaşa qarşıdurma olacaq. Bu, hər iki gücün "qeyri-kinetik" (enerji, kiber, informasiya) müharibəsinə başlama riskini xatırlatmaq deyil. Hadisələrin belə inkişafı ehtimalı mövcuddur, baxmayaraq ki, bu gün çox da böyük deyil. Birincisi, hər iki güc "qarşılıqlı təminatlı məhv" doktrinasını formalaşdıran Soyuq Müharibə dövründə nüvə müharibəsinin qarşısının alınması nəzəriyyələri ilə yaxşı tanışdır. Amerika ənənəsində bu fikirlər Henri Kissincerin Nüvə Silahları və Xarici Siyasət və ya Tomas Şellinqin Silahlar və Təsiri kimi klassik əsərlərdə inkişaf etdirilir. Dünyadakı elm adamları, hərbi liderlər və siyasətçilər ümumiyyətlə, yaxşı başa düşürlər ki, nüvə təhlükəsi dünya liderlərinin əllərini qırmızı düymələrdən uzaqlaşdırır.

Noyabr ayında prezident Si Cinpin və prezident Co Bayden San-Fransiskoda Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatının (APEC) sammitində görüşdülər. Münasibətlərdə istiləşmənin açıq əlamətləri olmasa da, Amerika mətbuatının ümumi tonu orta dərəcədə optimist olaraq qalır. Si Cinpin hazırda amerikalı ekspertlərə Şərqi Avropa və Mərkəzi Asiyada kommunist hakimiyyətinin dağılmasına göz yuman Sovet lideri Mixail Qorbaçovu xatırladır. Amerikada qeyd edildiyi kimi, Si Cinpin dövründə Çin gücünün tədricən azalmasının "yol xəritəsi"nin necə görünə biləcəyini anlamaq üçün ƏMH ölkələrinin keçdiyi tarixi yolu izləmək kifayətdir.

Bununla belə, belə optimizm yanlış istiqamətə yönələ bilər. Tarix heç vaxt sözün əsl mənasında təkrarlanmır, amma çox tez-tez qafiyələnir. Amerika mətbuatı qeyd edir ki, Sovet İttifaqının dağılmasının nəticələri yenidən oxumağa dəyər bir dastan deyil. Buna görə də, Amerika siyasətçiləri bu ssenarini də nəzərdən keçirməlidirlər: Çinin gücünün mümkün süqutu və bu çöküşün son nəticədə gətirə biləcəyi təhlükələr.

***V.VƏLİYEV***

***P.S. Məqalədə xarici mənbələrə istinadlar var.***

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər

"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il dekabrın 13-də YAP Sabunçu rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Suraxanı rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı,





Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Sonda xatirə fotosu çəkdirilib.

ŞƏRH-ANALİTİK

# Anti-Paşinyançıların yeganə “siyasi alternativi” Qarabağla bağlıdır

## Nikol Paşinyan: "Bəzi qüvvələr Qarabağ məsələsindən istifadə edib, hər şeyi mümkün olmayan problemin həllinə yönəldiblər"





Ermənistanın baş naziri, ”Vətəndaş sazişi” partiyasının idarə heyətinin sədri Nikol Paşinyanın İcevanda partiyadaşları ilə keçirdiyi müşavirədə səsləndirdiyi bir sıra fikirləri diqqət çəkib. Xüsusilə, Qarabağ məsələsi üzündə köklənən erməni baş nazirin sözlərinə görə, hələ 2016-cı ilin avqustundakı danışıqlar prosesində baş verən substantiv dəyişikliklər ”dqr”-in ləğvi prosesini qaçılmaz etdi. Bu baxımdan, mövcud vəziyyətdə və gələcəkdə də sözügedən mövzuya? ümumiyyətlə yer yoxdur, olmayacaq da. Paşinyan dolayısı ilə əsas günahları keçmiş iqtidarın üzərinə yönəltməklə artıq həmin vaxtlardakı danışıqlar prosesində qondarma ”dqr”in ləğv olunacağı barədə qərarların verildiyini bildirib.

”Danışıqlar vəziyyətində qaçılmaz yol təkcə ərazilərin verilməsi deyil, həm də Qarabağda yaradılmış dövlət nizamının ləğvi idi”, - deyən Ermənistanın baş naziri əlavə edib ki, o? bu barədə birinci dəfə istintaq komissiyasında çıxışı zamanı çox ehtiyatla, üstörtülü danışıb, ikinci dəfə isə daha açıq bəhs edib: ”Bu yaxınlarda vətəndaşların suallarını cavablandırdım. Hazırda Qarabağdakı hadisələrdən sonra mən daha sərbəst danışa bilirəm”.

O qeyd edib ki, bu mövzu müzakirə olunmayıb. Çünki müzakirə olunsaydı, xalqa 30 il ərzində resursların mənasızcasına həlli mümkün olunmayan problemə sərf edildiyi söylənilməli idi: ”Niyə görə bu problem həll olunmaz idi? Çünki BMT Təhlükəsizlik Şurasının qətnamələri var idi. İndi bizi çox ittiham edirlər, deyirlər ki, əvvəldən Qarabağın öz müqəddəratını təyinetmə məsələsi ilə məşğul olacağımızı deyirdik, amma bunu etmədik. Məsələ ondadır ki, biz öz müqəddəratını təyinetmə hüququnun nə olduğunu anlamağa çalışdıq və 6 dekabr 1996-cı ildə Lissabon sammitində bizə (ozamankı Ermənistan hakimiyyətinə) dedilər ki, öz müqəddəratını təyinetmə hüququnun ən yüksək forması Azərbaycan daxilində ola bilər”.

Paşinyan bəzi günahları öz üzərinə götürməyi də unutmayıb. Daha dəqiq desək, 44 günlük müharibədəki məğlubiyyətdən sonra o xalqla açıq danışmasını səhv addım olaraq qiymətləndirib: ”Əslində, biz bu məntiqlə getdik və bizim ən böyük səhvimiz odur ki, 44 günlük müharibədən sonra xalqımızla bu mövzularda açıq danışmağa başladıq”.

Ancaq bütün bunlara baxmayaraq, Ermənistandakı müxalifətçi qüvvələrin özünə qarşı hələ də Qarabağ kartından istifadə edildiyini deyən baş nazir bunu həmin qüvvələrin ”yeganə alternativ mübarizə üsulu” olduğunu bildirib: ”Bəzi qüvvələr Qarabağ məsələsindən istifadə edib, hər şeyi mümkün olmayan problemin həllinə yönəldiblər”. Görünən isə budur ki, Ermənistanın baş naziri artıq bu məsələlərdən bezib və bu səbəbdən də müxtəlif vasitələrlə mesajlar ötürür.

***Afət Tahirqızı***

# Məktəblərdə şagird-müəllim özbaşınalığı:

# NƏ EDİLMƏLİDİR?

Son dövrlərdə məktəblərdə şagirdlərin bir-biri ilə, müəllimlərin şagirdlərlə xoş olmayan davranışlarına tez-tez rast gəlirik. Məktəblərdə, bağçalarda baş verən bu hallar cəmiyyətdə haqlı narazılığa səbəb olur. Haqlı və haqsız narazılıqların qarşısını almaq üçün çıxış yolu kimi müxtəlif təkliflər səsləndirilir ki, bunlardan biri də bütün təhsil ocaqlarında müşahidə kameralarının quraşdırılmasıdır. Yəni, istər rəhbərlik, istərsə də, valideynlər istənilən an bu kameralar vasitəsilə şagirdlərin nə etdiyini, müəllimin onunla necə davrandığının gedişatını izləyə bilsinlər. Bəs kameraların quraşdırılması nə dərəcədə effektiv üsul sayıla bilər. SİA mövzu ilə bağlı ekspertlərin fikirlərini öyrənib.




Təhsil üzrə ekspert Kamran Əsədovun fikrincə, müşahidə kameralarının quraşdırılması təhsil müəssisələrində nizam-intizamın gücləndirilməsində ciddi rol oynaya bilər: ”Çox təəssüf ki, bəzi hallarda məktəb direktorları özü məktəbdə bu tipli kameraların quraşdırılmasına maraqlı olmurlar. Ona görə ki, onların rəhbərlik etdiyi təhsil ocaqlarında kameralar vasitəsilə tədrisin nə qədər aşağı olduğu izlənilə bilər. Bir sıra direktorlar, məhz buna görə istəmirlər, yaxud da kameranın yaddaşını qısahəcmli qoyurlar. Bəzən onu özləri xarab edirlər ki, müşahidə olunma imkanları məhdudlaşsın. Valideynlər kənardan onlayn şəkildə bunu izləsələr, müəllimin, uşaqların rəftarını görə bilərlər. Biz orta ümumtəhsil məktəblərinin tam şəkildə kameralaşmasını təmin etməliyik. Şagirdlərin təhlükəsizliyi bu yolla həll oluna bilər. Çünki son vaxtlarda məktəblərdə ciddi hadisələr baş verir. Şagirdlərin xəsarət alması ilə nəticələnir. Bu tipli problemlərin aradan qalxması üçün həm orta məktəblərdə, həm də ali məktəblərdə bu olmalıdır”.

Elm vəTəhsil Nazirliyinin ictimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov paytaxt və bölgələrdəki təhsil ocaqlarının təhlükəsizlik kameraları ilə təmin olunması barədə bildirib: ”Bütün məktəblərdə bunu hələ ki, aparmaq mümkün deyil. Amma bu prosesə bağlı işlər gedir. Və planlı şəkildə məktəblərin müşahidə kameraları ilə təmin olunması əsaslı şəkildə icra olunur. Amma bütün məktəblərdə bir ay, bir il içində bunu etmək mümkün deyil. Bu, lazım da deyil. Bölgələrdə kameralar rayon mərkəzlərində olan məktəblərdə var, amma kənd yerlərində olan məktəblərdə tələb görülmür. Çünki orada əhali sıx yaşamır. Gələcəkdə ola bilsin ki, təmin olunsun”. Hər halda təhsil ocaqlarının kameralarla tam təmin olunması nə qədər tez aparılarsa, bir o qədər valideynlərin narahatlığına son qoyular, məktəb və bağçalarda təhsil nizam-intizamla bağlı problemlər azalmış olar.

***Söylü Ağazadə***



**Elçin Bayramlı**

# Multiterror: Uşaqlarımızın psixologiyasını kim və necə pozur?

**İndiki uşaqlar daha çox yeni tipli cizgi filmlərinə bax(dırıl)ır ki, bu tip filmlərin də onların psixologiyasında dərin və zərərli iz buraxdığı məlumdur. Uşaqlar belə filmlərə özləri üstünlük vermir, valideynlər onlara bu şəraiti yaradır və həmin multfilmləri özləri qoyurlar uşaqların qarşısına. Bu yaxınlarda təsadüfən gördüyüm bir cizgi filmi bir personajın digərini vəhşicəsinə öldürməsi ilə başlayırdı...**

Bu gün telekanalları zəbt edən qanlı, döyüşlüdavalı multfilmlər uşaq psixologiyasına olduqca böyük zərər verir. Yenicə ətraf aləmlə tanışlığa başlayan uşaq cizgilərdəki münasibəti həyatında da görmək istəyəcək. Çünki, uşaqların gördükləri və eşitdikləri hər şey alt şüura həkk olunur və bunların əsasında psixologiyaları müəyyənləşir. Elə böyüklərin də...

Köhnə filmlər tərbiyəvi əhəmiyyətlidir, uşaqlara dostluq, insanlıq, düzgünlük, vicdanlılıq təbliğ edir. Keçən əsrdə çəkilmiş filmlər çox müsbət enerjili, sülhsevər və düşündürücü süjet xəttinə malikdir. Belə multfimləri izləyən uşaqlarda insanlara, heyvanlara, təbiətə qarşı humanist münasibət yaranır.

Müasir multfilmlərin az qala hamısı yalnız zərərli şeyləri təbliğ edir və onları psixotron terror silahı adlandırmaq olar. ABŞ-ın ”Seattle” Uşaq Xəstəxanası Araşdırma İnstitutunun 330 uşaq üzərində reallaşdırdığı araşdırmanın nəticələrinə görə, məktəbəqədər dövrdə şiddət mövzulu müasir cizgi filmlərinə baxan uşaqlar yaşıdlarına görə 3 qat daha aqressiv olur.

Rusiyada aparılmış bir tədqiqata görə isə, müasir multfilmlərə baxan uşaqlarda hiylə, pis davranış, itaətsizlik, aqressivlik və vicdan əzabı çəkməmək kimi davranışların sıx müşahidə edildiyi ortaya çıxdı.

21-ci əsrdə çəkilmiş multfilmlərin, xüsusən də Amerika və bəzi Qərb ölkələrinin istehsalı olan filmlərin çoxu subliminal mesajlarla, 25-ci kadrla doludur. Bu isə görünməyən terrorun uşaq beyninə həkk edilməsi deməkdir. Valideynlər diqqətli olmasa şiddət və qorxu məzmunlu filmlər izləyən uşaqlar gələcəyin potensial şiddət və zorakılıq təbiq edənləri ola bilər.

Bizim telekanallarda da həmişə müasir cizgi filmlərini verirlər. Sanki hansısa qüvvə onlara özümüzün istehsalı olan milli multfilmləri və ya keçən əsrdə müxtəlif ölkələrdə çəkilmiş normal filmləri efirə verməyə qadağa qoyub. Maraqlı burasıdır ki, belə bir qadağa yoxdur, bu kanalların niyə belə etdiyinin səbəblərini tapmaq olmur.

Təkcə ötən əsrin 80-ci illərində kinostudiyada 38 adda cizgi filmi istehsal olunub. ”Cücələrim”, ”Meşəyə insan gəlir”, ”Sehrli ağac”, ”Taya”, ”Dəcəl dovşan”, ”Sandıq”, ”Sən belə cumbulusan”, ”Sehrli ləçək ”, ”Uçan zürafə”, ”Qəribə əjdaha”, ”Təqib”, ”Yatmaq vaxtıdır”, ”Balaca çoban”, ”Humayın yuxusu”, ”Sakit Yonun macəraları”, ”Ana ağaca qonub”, ”Xeyir və Şər”, ”Cırtdan-Pəhləvan”, ”Uşaq və külək”, ”Akvarium”, ”Cırtdan və div”, ”Yeni il əhvalatı”, ”Sehrli naxışlar” və s

İndi azərbaycanlı bir uşağa sual versən, öz multfilmlərimizdən 2-nin adını çəkə bilməz. Amma azı 20 əcnəbi filmin adını çəkə bilər, hətta süjetini sizə əzbər danışar. Bu artıq faciədir.

Bu yöndə telekanalların üzərinə düşən iş o qədər də böyük deyil, sadəcə milli filmlərin fonduna, videotekaya müraciət etmələri kifayətdir. AzTv-nin arxivində də demək olar ki, hamısı var. Üstəlik, ”Soyuzmultfilm”in istehsalları və keçmiş SSRİ-nin digər respublikalarında çəkilən multfilmlərin dublyaj olunmuş variantları da. Bircə qalır bunları efirə vermək. Valideynlərin bəhanəsi isə əsassızdır. İndi internet əsridir. İnternet portallarda minlərlə flim var,

# Molla aşı gördü, mərsiyəxan pulu: ölən yaddan çıxdı

***Son bir neçə ilin ən qızğın müzakirə və mübahisə edilən mövzularından olan yas süfrəsi mövzusu hələ də müzakirəyə açıq olaraq qalır. Bu qədər yazılan, müzakirə ediləndən sonra belə heç bir yas sahibi süfrəsini "kasıblatmadı". Yenə yas süfrələri dəbdəbəsindən, təntənəsindən, cah-cəlalından geri qalmır. Hər gün dindən dəm vuran, israfçılığın günah olmasından danışan insanların öz evində olan yas mərasimlərində belə bu mənzərə kifayət qədər dəbdəbəlidir.***





## Qonşu qonşuya baxar...

Çox pis bir cəhətimiz var, heç kim qonşudan geri qalmır, qalmaq istəmir, lap imkanı olmasa da, lap dilənçi də olsa. Çoxdan başlayıb bu ənənə. İnsanlar yas mərasimlərini toya çevirdilər, süfrələr dolub-daşdı, yas evinin həyətindən toy evini xatırladan təamların növbənöv qoxuları yayıldı ətrafa. Qadınlar yasa daha sadə bir don, adi bir paltar geyinib getmirdi, kimin nə qızılı, brilyantı, bahalı telefonu vardısa yas mağarında nümayiş etdirirdi.

Heç kim ayağını yorğanına görə uzatmırdı, qonşum atasının yasında 2 cür yemək verdisə, mən 3 növ etməliydim. Əgər mən öz yas məclisimimdə bir növ şirniyyatla qonağımı yola saldımsa, qonşum acığa düşüb 2 növ şirniyyat düzürdü yas süfrəsinə. Hələ ləbləbini, növbənöv şokoladları, rəngbərəng meyvə sularını, ekzotik meyvələri demirəm. Qonşunun yas süfrəsini bəyənməyib "layiqli ehsan vermədi" deyə tənə edənlər də çoxdur aramızda. Yas məclisini dəbdəbəli şəkildə təşkil etməklə insanlar, başqasının tənələrindən uzaq olmağa çalışırlar. Düşünür ki, süfrəyə az nemət qoysa deyəcəklər ki, ata-anasına hörmətsizlik etdi. Ya filankəs məclisdə üç cür şirniyyat verib deyə bu o qədər verməli, ya da ondan da artıq sayda şirniyyat növü menyuya daxil etməlidir.

Bütün ölkəmiz bu yas dəbdəbəsinin əsiridir. Borca salan, sələmə girməyə vadar edən yas mərasimləri fəlakətdən də betərdir. Yasın düşəndə bilmirsən itirdiyin əzizinə yanasan, yoxsa borca girib yas süfrəsi açmaq məcburiyyətində olmağına. Ölən əzizin qalır bir tərəfdə, sən qonaqların nə yeyəcəyini, neçə kilo ət lazım olacağını, hansı şirniyyatları bişirtdirmək lazım olduğunu hesablamalısan.

## Yas evində qazan asılmaz

Yas mərasimi kədərin göstəricisidir, ona görə yas düşən evdə qədimdə ocaq tüstüləməzdi neçə gün. Əzizi ölən yemək bişirib süfrə qurmaq istəməz axı. Yası düşənə, əzizi ölənə qonşusu yemək bişirib gətirərmiş - ocağını tüstülətmədiyi, süfrəsini açmadığını bildiyi üçün. İndi neynirik? "Az qalırıq tort sifariş edib üzərində ölən əzizimizin portretini əks etdirək" deyəcəkdim, yadıma düşdü ki, artıq onu da edirik.

İndiki yas mərasimlərinin bircə xanəndə-çalğıçı heyəti çatmır. Oxuyanın yerində molla oturmasa, divardan mərhumun qara lentli rəsmi asılmasa heç kim anlamaz yas mağarına girdiyini. Hər məclisdə molla, axund "bu cür yas süfrəsi açmaq günahdır" deyir, amma özləri daha çox yeyir o təamlardan. Biz göstərişi, cah-cəlalı sevirik. Ən kasıbımız da, ən milyonçumuz da.



Yas mərasimi qarşılıqlı yardımlaşma ilə yola verilirdi, qonşular əlindən tuturdu yas evi sahibinin. Təəssüf ki, bu gün bu adətlər unudulur, başqa formalara salınır. Artıq qarşılıqlı yardım anlayışı əvəzinə yası düşmüş ailənin külli miqdarda borca düşərək yasa gələnlərə ehsan verməsi kimi əcaib adət formalaşıb. Əzizini itirmiş insanlar bilmirlər ki, nə etsinlər. İnsanlar yasa sanki ölü yiyəsinə təsəlli vermək üçün deyil, yemək üçün gəlirlər. Əlbəttə, bütün bunlardan əhalinin varlı təbəqəsi deyil, kasıblar əziyyət çəkirlər.

Restoranlarda nəinki xeyir, həm də şər üçün xüsusi zallar ayrılıb. Məqsəd də əlbəttə ki, insanların cibinə girərək pul qazanmaqdır. Restoranlardan başqa, belə məclislər üçün qurulan çadırlar da çox bər-bəzəklidir. Artıq çadırlarda insanlar üçün hər bir xidmət yaradılıb. Bu cür çadırların içində hətta ayaqyolu olanları da var. Əvvəllər, rayon-kənd yerlərində kiminsə yaxını öləndə yası olan şəxs sadəcə çadıra görə pul ödəyirdi. Qalan bütün işləri özü, yaxınları gördüyü üçün heç bir əlavə vəsait xərcləmirdi. Amma indi vəziyyət dəyişdiyi üçün hər kəs bu cür xidmətlərdən yararlanmağa üstünlük verir. Ofisiantından tutmuş qab-qaşıqların yuyulmasına qədər bütün xidmətlər yas mərasimi təşkilatçıları tərəfindən təklif olunur. Çadırın içinin çilçırağı, xalçası, pərdələr, mikrofon-səsgücləndirmə sistemi, qab-qacaq və s. xidmətə daxildir.

## Əzizinə ağlamayıb pulla ağlayan tutanlar

Yas evlərinin bir məşhur siması da var - mərsiyəxan. Daha çox şəhər mühitində fəaliyyət göstərirlər. Dini savadları olmayan, insanlarda allaha sevgi aşılamaq yerinə daha çox allah qorxusu və xof aşılamaqla tanınırlar. Məclis boyunca yalançı göz yaşı axıdıb dinlə əlaqəsi olmayan xurafatla zəngin əhvalatlar danışırlar.

Mərsiyəçi və ya mərsiyəxanlar məclisə yüksək qiymətə gəlirlər. Ən yaxşı halda 2 saatlıq ağlaşma mərasimi üçün 100-150 manat tələb edirlər, daha çox tanınan mərsiyəçilər məbləği yüksəldir. Əvvəllər ev sahibinin yaxını öləndə onun dərdinə şəriç çıxanlar, məclisə yığışanlar səmimiyyətlə ağlayaraq göz yaşı tökürdü. Çünki məclisdə əzizini itirən özü öz acısını dilə gətirib ağlayırdı. Amma indi ev sahibi özü dünyadan köçəninə ağlamaq yerinə mərsiyəçini ağladır. O məclislərdə mərsiyəçinin missiyası ağı deyib şüvənlik salmaq, məcburən də olsa ağlaşma yaratmaqdır. İndi heç kəs yas yerinə ağlamağa getmir. İnsanlar artıq bir-birinə yadlaşıb. Heç kəs heç kəsi tanımır. Bu yadlaşma nəticəsində isə heç kəs kiminsə ölüsü üçün göz yaşı axıtmaq istəmir. Adətən, yas yerlərində rəhmətə gedən insanın yaxşı əməlləri sadalanır, dünyadan köçərkən geridə qalanlar, əməlləri, yaxşılıqları, böyütdüyü uşaqların tərbiyəsi müzakirə edilir. Amma mərsiyəçilərin idarə etdiyi məclislərdə qəbir əzabından, namaz qılmayanın həşəratlar tərəfindən yeyilən cəsədindən, cəhənnəm və qır qazanından başqa heç nə danışılmır.

Qısası, yas mərasimi çoxdan yas olmaqdan uzaqlaşıb. Doğrudur, müəyyən qədər qarşısını aldılar, amma yenə də əvvəlki ənənə qayıdır, israfçılıq ayaq açır. Yenə də cənazəsini yarım saat əvvəl torpağa verən ev sahibi onu unudub qonaqların yeməyini düşünməli olur. Yenə də molla xüsusi geyimli ofisianta aşın qazmaqlı yerindən, bol qaralı olmasını sifariş edir, yenə də qonaqlar şirniyyatın azlığından şikayətlənir, yenə də mərsiyəçi pulunu gözləyir. Ev sahibi isə sifarişləri yerinə yetirməlidir. "Heyif öləndən" deməyəsən, neyləyəsən?

***Lalə Mehralı***

---

# "Müxalifət özlərinin nə qədər aciz durumda olduqlarının fərqindədir"

**"Cənab Prezident İlham Əliyevin 7 dekabr tarixli sərəncamı ilə ölkəmizdə 2024-cü ilin 7 fevral tarixinə növbədənkənar prezident seçkiləri təyin edilib. Prezidentimizin belə bir səlahiyyəti var. Konstitusiyada da bu öz əksini tapıb. Yəni, məsələnin hüquqi tərəfi tam aydındır". Bu sözləri SİA-ya açıqlamasında deputat Elman Nəsirov deyib.**

Deputat sözlərinə belə davam edib: "O ki qaldı bu məsələyə, müxalifətin reaksiyasına... Müxalifət çaş-baş qalıb. Onlar özlərinin səviyyəsinə, əxlaqına, mənəviyyat və düşüncəsinə adekvat olan ifadələrlə bu seçkiyə qiymət vermək istəyirlər. Hiss olunur ki, özlərinin nə qədər aciz durumda olduqlarının fərqindədirlər. Güclü sosial bazaya malik siyasi partiya heç vaxt belə davranış ortaya qoymaz. Müxalifətin gecə-gündüz dilinin əzbəri seçkilər idi. Bax, bu da seçkilər! İştirak edin, öz gücünüzü ortaya qoyun, namizədinizi irəli sürün və seçki prosesində iştirak edin.



Yeri gəlmişkən, Siyasi partiyalar haqqında qanunun əsas tələblərindən biri ondan ibarətdir ki, qeydiyyatdan keçmiş siyasi partiyalar seçki prosesində fəal iştirak etməlidirlər. Seçkidə iştirak etmirsənsə, onda niyə yaranmısan?

Hər bir siyasi partiya yaranarkən onun əsas məqsədi hakimiyyətə gəlməkdir. Hakimiyyətə gəlmək üçün də seçkilər unikal şansdır. İstifadə edin şansınızdan, amma istifadə etmirsiniz. Çünki Əli Kərimli də, Tofiq Yaqublu da, Gültətin Hacıbəyli də, Cəmil Həsənli və onların ətrafları da yaxşı bilir ki, cənab İlham Əliyevin reytinqi ən yüksək səviyyədədir. Xalqımız Prezidentimizə öz milli xilaskarı kimi baxır. Belə olan vəziyyətdə Azərbaycan Prezidentinə rəqib olub seçkilərə qatılmaq və biabırçı məğlubiyyəti görmək istəmir, ona görə də yanalböhtan atırlar. Hər kəs öz xislətini ortaya qoyur. Xalqımızın düzgün seçim edəcəyinə heç bir şübhəm yoxdur. Xalqımın məşhur bir deyimi var ki, kim Qarabağı işğaldan azad etsə, o, bizim əbədi prezidentimizdir. Artıq xalqın 7 fevral tarixində hansı seçimi edəcəyi bu sözlərdən sonra hər kəsə aydındır".

***Ayşən Vəli***

# Qərbi Azərbaycana tarixi səyahət




**Naxçıvanda noyabr ayının sonunda keçirilən "Qərbi Azərbaycana qayıdış" festival-konqresi dövlətimizin başçısının ötən 20 ildə həyata keçirdiyi Qayıdış konsepsiyasının bir hissəsidir. Qarabağın və Şərqi Zəngəzur iqtisadi rayonunun işğal altında olan əraziləri 2020-2023-cü illərdə düşməndən azad olunduqdan sonra qarşıda duran məsələ illər əvvəl qədim ata-baba torpaqlarından deportasiya olunan azərbaycanlıların öz yurdlarına qayıtmasıdır.**

Dövlətimizin başçısının dəstəyi ilə Qərbi Azərbaycan İcmasının yaradılması, icmanın ötən dövrdəki fəaliyyəti, verilən bəyanatlar, görülən tədbirlər Qərbi azərbaycanlıların ləyaqətli və təhlükəsiz şəkildə yurduna qayıtmasına böyük hüquqi və təşkilati dəstək kimi diqqətəlayiqdir.

"Qərbi Azərbaycana qayıdış"la bağlı ilk tədbirin məhz Naxçıvanda keçirilməsi təsadüfi deyil. Çünki Naxçıvan həmin çətin günlərdə Qərbi azərbaycanlı soydaşlarımıza qucaq açıb. Və bu da təsadüfi deyil ki, deportasiyaya uğrayan Qərbi azərbaycanlıların böyük əksəriyyəti Naxçıvanda məskunlaşıb.

Naxçıvanda keçirilən festivalda sərgilənən Qərbi Azərbaycana məxsus folklor nümunələrindən ibarət kompozisiyalar, kitab sərgisi, kulinariya və maddi mədəniyyət nümunələrindən ibarət stendlər, Qərbi Azərbaycan mahnıları və folklor nümunələrindən ibarət konsert proqramı, Qərbi Azərbaycana həsr edilən filmlərin nümayişi Qərbi Azərbaycandan olan, muxtar respublikada yaşayan sakinləri sanki bir neçə günlüyə öz yurdlarına apardı. O yurdları ki, oraya qayıtmalarına çox az bir zaman qalıb.

Naxçıvandakı möhtəşəm tədbirdən yola çıxaraq Qərbi Azərbaycan mövzusunda kiçik bir araşdırma apararaq ermənilərin və onların havadarlarının zaman-zaman Azərbaycan torpaqlarını işğal etməsinə, bu gözləri ac millətin nadan xislətinə işıq salıb tarixi faktların nədən söhbət açdığını xatırlatmaq istədim.



## Tarixi faktlar nədən danışır

Çox təəssüflər olsun ki, ermənilər xalqımızın tale yazısı oldu. Onlara bizimlə qonşuluqda yaşamaq şansı verildi. Beləliklə başladılar bizim tarixi torpaqlarımız hesabına öz ərazilərini genişləndiməyə. Özlərinə yer edəndən sonra torpaqlarımızda soyqırımlar, təxribatlar törətməklə soydaşlarımızı qətlə yetirdilər, sağ qalanları pərən-pərən saldılar. Yaltaqlıq və riyakarlıqlarından istifadə edib himayədarlarına çevrilənlər onları zaman-zaman Azərbaycan torpaqlarına yerləşdirməyi qarşılarına məqsəd qoydular. Çünki bu çox mənada onlara da sərf edirdi. Bunu tarixi faktlar da sübut edir.

## Qərbi Azərbaycan bəylərbəyi Rəvan xanın Şah İsmayıl Xətaiyə məktubundan

"Ulu şahım Beynənnəhreyndən (Mesopotamiyadan) Van gölü sahillərinə, oradan da Qafa ( Qafqaza ) oğuz-türk torpaqlarına 5-5, 10-10 gələn ermənilər saziş şərtlərinə görə sənətkarlıqla məşğul olmaq əvəzinə, məskunlaşmağa can atır, ufacıq kilsələr tikdirir, beləliklə, bu tayfanın Qafda qədim mövcudiyyəti təsəvvürünü yaradırlar ki, bu da istiqbalda nəsillərimizə başağrısı verəcək Bu işləri indi Ağkilsə (Əçmiədzin) kəndində əyləşən dünya ermənilərinin katolikosu II Qriqori maliyyələşdirir Qarışıq nikahlar məni qorxudur, Şahım! Mənə səlahiyyət ver, cəmi 15 min gəlməni mövsümi işçilər kimi qisim-qisim qaytarım Vətənin dışarına. Sənin qulun Rəvan Xan".

## İrəvan əyalətinin icmal dəftəri, 1519. İrəvan qalabəyisi I Pyotrun əmrlərindən

"I Pyotr ölümündən qabaq, 10 noyabr 1724-cü ildə üç ermənini erməni katolikosu İsayya ilə birlikdə qəbul edir. "Ermənilərə əl tutmaq və Xəzəryanı əyalətlərdə yerləşdirmək" barədə onların xahişini dinləyir. Elə o gündəcə I Pyotr erməni xalqının orada yerləşdirilməsi haqqında general-leytenant Matuşkinin və briqadir Levaşovun adına buyruq verir: "Ermənilərin Gilan, Mazandaran, Bakı, Dərbənd və başqa ərazilərdə yerləşdirilməsinə çalışın, bu bölgələrdəki yerli əhalini isə imkan düşdükcə sıxışdırıb oradan çıxarın".

## XIX əsr rus tarixçisi P.Q.Butkov

***

I Pyotr Matyuşkinə göndərdiyi fərmanda yazırdı: "Bakı sakinlərindən silahlar yığılsın, müqavimət göstərənlər Astarxana sürgün olunsunlar. Şahın 300 nəfərlik xidmət adamlarından 100 silahlı suvarini imperator xidmətinə qəbul etmək, qalanlarını isə azad etmək. Daha çox bakılının şəhərdən köçürülməsi mümkündür. Gilan və Mazandaranda da müsəlman türklərini azaltmaq gərəkdir".

***

I Pyotr tərəfindən Xəzərboyu vilayətlərdə fəaliyyət göstərən rus hakimiyyəti orqanlarına belə bir göstəriş verilmişdi: "1) Müqəddəs Xaç, Dərbənd və Bakı qalalarında məskunlaşmaq üçün ermənilərə tələb olunan və kifayət qədər yer ayrılsın. Salyan, Gilan və Mazandaranda həm şəhərlərdə, həm də kəndlərdə bu qaydaya əməl edilsin; 2) ermənilərə boş qalmış, kimsəsiz həyətlər və məskənlər, həmçinin Rusiyanın açıq düşmənlərinə və şübhəli şəxslərə mənsub mülklər də verilsin; 3) ermənilərə hər cür köməklik göstərilsin və onların müsəlmanlardan möhkəm qorunması təmin edilsin".

## Potyomkinin II Yekaterinaya məktubundan

19 may 1783-cü ildə rus qoşunlarının baş komandanı general-feldmarşal knyaz Q.A.Potyomkin II Yekaterinaya yazırdı:"Fürsət düşən kimi Qarabağda hakimiyyəti ermənilərə verəcək və bunlar vasitəsi ilə Asiyada xristian dövləti yaradacağımız barədə erməni məliklərinə göstərişlər vermişəm". 1780-cı il yanvarın 3-də Moskvada özünə yer etmiş erməni keşişi Arqutinski və Yegizaryanın uydurma "Böyük Ermənistanın" bərpası və İrəvanda ayrıca Erməni dövləti yaradılması xahişinə knyaz Q.A. Potyomkinin cavabı: "Bu mümkündür, ancaq sizin patriarxınız bir neçə yerli hakimlə sizinkilərin xilası haqqında məsələ qaldırması vacibdir, bundan sonra biz sizin köməyinizə gələrik".

Bəli, yüzlərlə belə faktlar gətirmək olar ki, tarixin bütün dönəmlərində Azərbaycan torpaqlarının tarixi sahiblərindən qoparılaraq ermənilərə verilməsində maraqlı şəxslər olub. Bu, bir tərəfdən xristian aləminin genişlənməsinə, müsəlman aləminin sıxışdırılaraq aradan çıxarılmasına hesablanmışdırsa, digər tərəfdən də ümumilikdə türk dünyasının birləşməsinin qarşısını almaq məqsədilə gələcəyə hesablanmış tədbirlər, planlar idi.

## İrəvan-Zəngəzur-Naxçıvan

Uzun illər ərzində ermənilərin Azərbaycan torpaqlarına yerləşdirilməsi və ya tarixi torpaqlarımızın ermənilərə verilməsi ilə bağlı planların həyata keçirilməsinin çox keçmədi ki, şahidlərinə çevrildik. Bu planlar o qədər uzaqgörənliklə hazırlanmışdı ki, həyata keçdikcə Azərbaycan üçün yeni-yeni problemlər yaradacaq, onun tarixi ərazilərini qoparıb özündən kənara atacaqdı. Bunu vaxtında lazımi şəkildə götür-qoy edə bilmədiyimiz üçün bizdən əvvəl düşünüb həyata keçirənlər oldu. İrəvanın vaxtilə çox böyük səhvliklə ermənilərə verilməsi problemlərin başlanğıcı oldu. İrəvanın əldən getməsi Zəngəzura yol açdı. Zəngəzurun ermənilərə verilməsi isə Naxçıvanın məxsus olduğu ölkə ilə quru yolunu kəsdi. Və bu xalq üçün uzun illərin probleminə çevrildi.

Ardı Səh. 12

**Əvvəli Səh. 11**

Bu barədə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərli yazır ki, 1918-ci il mayın 29-da Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən İrəvanın ermənilərə güzəştə gedilməsindən sonra ermənilər Naxçıvanı ələ keçirmək üçün daha da fəallaşmışdılar. Həmin zaman Amerika Birləşmiş Ştatlarının bölgədə rolunun artması erməniləri daha da şirnikləşdirdi. Naxçıvana təzyiqlər artırdı, buna görə də bölgəni ermənilərin işğalından qorumaq üçün əhalinin təşəbbüsü ilə 1918-ci ilin noyabrında Araz-Türk Respublikası yaradıldı. Çox geniş bir ərazini - 8696 kvadrat kilometri, o cümlədən Naxçıvan və Şərur-Dərələyəz qəzalarını, Ordubad mahalını, Sərdarabadı, Uluxanlını, Vedibasarı, Qəmərlini, Mehrini, Sürməlini əhatə edən və 1 milyon nəfərə yaxın əhalisi olan Araz-Türk Respublikasının paytaxtı Naxçıvan şəhəri idi. Az bir müddət yaşamasına baxmayaraq Araz-Türk Respublikası əhalinin erməni təcavüzünə qarşı səfərbərliyə alınmasında, bölgənin erməni işğalından qorunmasında mühüm rol oynayırdı. Bu işdə əsası daha əvvəllərdən qoyulmuş, Araz-Türk Respublikası tərəfindən isə təşkilatlandırılmış milli qüvvələr - batalyonlar, o cümlədən Kəblə Muxtarın rəhbərlik etdiyi Nehrəm batalyonu, Kəblə Kərimin rəhbərlik etdiyi Cəhri batalyonu, Məhəmmədrza bəyin rəhbərlik etdiyi Dizə batalyonu, Hüseyn Əliyevin rəhbərlik etdiyi Şərur batalyonu, Həsən Şalıverdi oğlunun rəhbərlik etdiyi Şərur-Sədərək kəndlərindəki birliklər, Məşədi Ələsgər ağanın rəhbərlik etdiyi Yengicə qüvvələri, Möhsün Camalovun rəhbərlik etdiyi Kərkər qüvvələri, Fətullah Hüseynov və Kərbəlayi Həbib bəyin başçılığı ilə Cəlilkənd-Zeyvə-Düdəngə kənd qüvvələri, İbrahimxəlil Axundovun rəhbərlik etdiyi Ordubad batalyonu mühüm rol oynamışlar. Bütün bunların sayəsində, əhalinin qüvvəsi ilə Naxçıvan erməni təcavüzündən xilas oldu. Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyü təmin olundu.

1919-cu ilin əvvəllərində ingilislər Naxçıvanı tutaraq Araz-Türk Respublikasını və Naxçıvan Milli Komitəsini ləğv etdilər. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ermənilərə inanaraq 23 noyabr 1919-cu ildə Ermənistanla bağlanmış müqavilənin şərtlərinə əsasən öz qoşunlarını Zəngəzurdan çıxardı. Bundan istifadə edən ermənilər Zəngəzuru tutdu və Naxçıvanın Azərbaycandan ayrı düşməsinin əsası qoyuldu. Zəngəzurun bir hissəsinin ermənilər tərəfindən işğal edilməsi Naxçıvan bölgəsinin blokadaya salınması, onun Azərbaycanın əsas hissəsi ilə əlaqələrinin kəsilməsi ilə nəticələndi.

Əzəli və tarixi Azərbaycan torpağı olan, hazırda indiki Ermənistanın cənub-şərqində yerləşən Zəngəzur ərazisi qədim zamanlardan Azərbaycan xalqına məxsus Göyçə gölü hövzəsini və Azərbaycan Respublikasının cənub-qərb hissəsini əhatə edir. Qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları ilə sərhədlənən, qədim zamanlardan Azərbaycan ərazisində yaranan müxtəlif dövlətlərin tərkibində olan və əhali tərəfindən Zəngəzur mahalı kimi tanınan bu ərazinin bir hissəsi Xanlıqlar dövründə Qarabağ, bir hissəsi Naxçıvan, qalan hissəsi İrəvan xanlığının tərkibində olmuşdur. Mahal ərazisinə daxil olan torpaqlar el qaydası ilə Qarakilsə, Gorus, Qafan, Mehri, Zəngilan, Qubadlı, Laçın bölgələrinə bölünmüşdür. Şimali Azərbaycanın Rusiyaya ilhaq edilməsindən sonra digər Azərbaycan torpaqları kimi, əhalisi ancaq Azərbaycan türklərindən ibarət olan Zəngəzura da İrandan və Osmanlı imperiyasından çoxlu erməni köçürülmüş, bununla da ərazidə onların sayı suni surətdə artırılmışdır.

Hələ Rusiya imperiyası dağıldıqdan sonra, XIX yüzillik boyu buraya köçürülən və yaranmış vəziyyətdən istifadə edən ermənilər 1917-ci ilin martından 1918-ci ilin mayınadək Zəngəzur ərazisində türk-müsəlman əhaliyə qarşı böyük soyqırımlar törətmiş, yüzlərlə yaşayış məskənini dağıtmış, əhalini deportasiya etmişlər. Bu qırğınlar 1918-ci ilin mayın sonlarında Cənubi Qafqazda Azərbaycan, Gürcüstan və Ermənistan dövlətlərinin yaranmasından sonra da davam etdirilmişdir. Təkcə erməni quldurlarından Andronikin, Njdenin və Dronun dəstələrinin basqınları nəticəsində 1918-ci ildə Zəngəzurun 115 kəndi yerlə-yeksan edilmiş, əhalisinə divan tutulmuşdu. Bu qırğınlar zamanı 3257 kişi, 2776 qadın, 2196 uşaq qətlə yetirilmiş, 1060 kişi, 794 qadın və 485 uşaq yaralanmışdı. Beləliklə, bütün qəza üzrə 10068 nəfər müsəlman əhalisi öldürülmüş və şikəst edilmiş, 50 mindən çox adam didərgin düşərək Azərbaycanın kəndlərinə pənah gətirmişdi.

Bəli, faktlardan da göründüyü kimi, İrəvanın ermənilərə verilməsi səhvi Zəngəzurun əldən getməsi ilə nəticələnmişdir. Zəngəzurun əldən getməsi isə Naxçıvan üçün illərdən bəri həllini tapa bilməyən problem yaratmışdır. 2020-ci ilin 27 sentyabrında başlayan və 10 noyabrında xalqımızın tarixi Zəfəri ilə bitən İkinci Vətən Müharibəsi ermənilərin 30 il əvvəl işğal etdikləri Qarabağın azadlığı ilə nəticələndi. Düşmən ağ bayraq qaldırıb təslim olduğunu bəyan edəndə Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan 10 noyabr Bəyannaməsində Naxçıvana kommunikasiyaların açılması kimi maddə nəzərdə tutulmuşdu və bunu bir öhdəlik kimi Ermənistan həyata keçirməli idi. Lakin Ermənistan müharibədən ötən üç ildə üzərinə düşən öhdəlikdən hələ də boyun qaçırır, verdiyi sözün üstündə dura bilmir. Çünki onların xisləti yalanlar üzərində qurulub. Yazıqlar düşünə bilmirlər ki, Qarabağı geri qaytaranlar Naxçıvanla əlaqəni də yarada biləcəklər. Onlar istəsələr də, istəməsələr də.




## Qərbi Azərbaycan bizim tarixi torpağımızdır

Prezident cənab İlham Əliyev Qərbi Azərbaycan İcmasının nümayəndələri ilə görüşü zamanı Qərbi Azərbaycanın tarixi torpaqlarımız olmasını faktlarla əsaslandıraraq deyirdi: Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq, əminəm ki, İcma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır.

Bəli, dövlətimizin başçısının da vurğuladığı kimi, ermənilər əzəli torpaqlarımızdakı tarixi, dini abidələrimizi darmadağın etməklə yanaşı, həm də yer adlarımızı sıradan çıxarmışlar. Qondarma adlar Azərbaycanın tarixi yurdlarına yamaq olaraq yapışdırılmışdır. Həmin adların geri qaytarılması isə o torpaqların azadlığı qədər vacibdir ki, bununla bağlı da dövlətimizin rəhbəri tapşırıqlar vermişdir.

”Xalqımız əsrlər boyu öz hüquqlarını qorumaq üçün, öz tarixi torpaqlarında yaşamaq üçün böyük fədakarlıq göstərmişdir. Ancaq buna baxmayaraq, tarixin müxtəlif vaxtlarında bizim xalqımız öz doğma torpaqlarından məhrum edilmişdir. XX əsr bu baxımdan xalqımız üçün çox böyük faciələr gətirmişdir. 1918-ci ildə təzə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti özünün ilk qərarlarından birində bizim tarixi şəhərimizi - İrəvanı Ermənistana faktiki olaraq bağışlamışdır. Bu, bağışlanmaz bir addım idi, bu, xəyanət idi və cinayət idi. Bunu biz hamımız yaxşı bilirik, xalqımız da bunu bilməlidir. Biz heç vaxt tariximizi təhrif etməməliyik. Tariximizdə şanlı səhifələr də olub, əfsuslar olsun ki, qara səhifələr də olub”,-deyən Prezident cənab İlham Əliyev daha sonra vurğulamışdır: Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması, qısamüddətli fəaliyyəti haqqında mən dəfələrlə öz fikirlərimi bildirmişdim. Azərbaycan Demokratik Respublikasının qurucularının fəaliyyətini yüksək qiymətləndirmişdim. Bu, doğrudan da dünya miqyasında, müsəlman aləmində ilk respublika idi, baxmayaraq ki, cəmi iki il yaşadı. Ancaq, eyni zamanda, biz bu tariximizin qara səhifələrini də unutmamalıyıq, ört-basdır etməməliyik. Birincisi, tarixi həqiqət təhrif olunmuş formada təqdim edilməməlidir. İkincisi, bu faciəvi hadisə hamımız üçün dərs olmalıdır.

O vaxt bu qərarı müxtəlif səbəblərlə izah etməyə çalışanlar da olub, bu gün də var. Ancaq hesab edirəm ki, heç bir izahat qəbul edilən deyil, çünki ermənilər bu addımla kifayətlənməmişlər. Əgər kimsə hesab edirdi ki, İrəvanı orada yaşayan insanlardan xəbərsiz öz doğma diyarından məhrum etməklə Ermənistan və ermənilər kifayətlənəcək, böyük səhv edirdi və sonrakı tarix bunu bir daha göstərdi. 1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Bu, xalqımıza qarşı növbəti cinayət idi. Bunun da məqsədi tam aydın idi. Birincisi, erməni millətçiləri sovet hökumətində mühüm vəzifələrdə idi. Digər tərəfdən, Azərbaycanı Naxçıvandan və Türkiyədən coğrafi nöqteyi-nəzərdən ayırmaq üçün atılmış bir addım idi.

Yəni, görün, cəmi iki il ərzində xalqımızın başına nə qədər böyük bəlalar gətirildi. Əgər kimsə hesab edirdi ki, 1918-ci ildə İrəvanı Ermənistana verməklə biz hansısa daha böyük bəlalardan özümüzü sığortalamış ola bilərdik, bax, Zəngəzurun Ermənistana verilməsi bir daha onu göstərir ki, bu, çox yanlış, səhv addım idi və dediyim kimi xəyanət idi. Hətta səndən güclü olan qüvvə qarşısında heç vaxt geri addım atmamalısan, hər zaman öz hüququnu qorumalısan, xüsusilə doğma torpağını qorumalısan.

Bəli, iki ildə edilən səhvlər bu xalqı 100 ildir ki, böyük çətinliklərlə üz-üzə qoyub. Həm tarixi torpaqlarımız əlimizdən gedib, həm də ölkəmizin bir hissəsi ilə olan əlaqələrimiz. Bütün bunların bərpası üçünsə təbii ki, zaman lazımdır. Çünki biz yenicə böyük və ağır müharibədən çıxmış xalqıq. Əsas məsələ torpaqlarımızın işğaldan azad edilməsi idisə, növbəti məsələ isə Qərbi Azərbaycanla bağlıdır.

## Sınmadıq, əyilmədik, inamımızı itirmədik, güc topladıq, istədiyimizə nail olduq

Keşməkeşli 100 illik tariximizi vərəqləyərkən, sözün həqiqi mənasında, bu xalqın başına gətirilənlər qarşısında heyrət etməmək olmur. Sanki ətrafda hər kəsin məqsədi Azərbaycandan hissələr qoparıb pay vermək, kimlərinsə ürəyini şad etmək, bu xalqı bəlalarla üz-üzə qoymaq, inkişafına, intibahına mane olmaq olub. Lakin biz də zamanla sınmamışıq, əyilməmişik. Qürurlu duruşumuzla, iradəmizlə yeni güç toplamışıq, istədiyimizə nail olmağa çalışmışıq. Bütün bunlara isə 100 ilin son 30 ilində nail ola bilmişik. Ümummilli Liderimiz Heydər Əliyevin müstəqilliyimizin dayağı olması, bu xalqa dəstəyi, dövlətimizin başçısı cənab İlham Əliyevin cəsarəti, bacarığı ilə. Ulu Öndər torpaqlarımılzın işğalını həmişə böyük ürək ağrısı ilə vurğulayır və böyük qətiyyətlə bir gün həmin torpaqlara geri qayıdacağımızı bildirirdi. Prezident cənab İlham Əliyev isə ata vəsiyyətini reallığa çevirən oğul, bu xalqa layiqli rəhbər oldu. Xalq-lider birliyi Azərbaycan tarixində 270 il sonra yenidən torpaq məsələsini gündəmə gətirdi və nəticədə Qarabağ və Şərqi Zəngəzurun müəyyən əraziləri azad edildi.

Prezident cənab İlham Əliyev: Qarabağın və Şərqi Zəngəzurun işğalı növbəti faciəmiz idi. Yəni, görün, təkcə XX əsrdə xalqımız nə qədər böyük bəlalarla üzləşmişdir. Ancaq sınmadı, əyilmədi, inamını itirmədi, güc topladı və nəticədə istədiyinə nail oldu. İki il bundan əvvəl biz öz tarixi missiyamızı şərəflə yerinə yetirərək ədaləti bərpa etdik, düşmənləri torpaqlarımızdan qovduq, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdik. Bu gün azad edilmiş torpaqlarda yaşayırıq, qururuq, yaradırıq, dağıntıları aradan qaldırırıq və dünyaya göstərməyə çalışırıq ki, gəlin, baxın, gözlərinizi açın, bu vəhşilikləri törədən sizin sevimli erməni xalqıdır. Bu cinayətləri hansısa yad planetdən gələnlər yox, sizin sevimli və himayəniz altında olan erməni xalqı törədib, məscidləri dağıdıb, tarixi abidələri dağıdıb, qəbirləri dağıdıb, olmazın vəhşiliklər edib. Eynisini onlar Qərbi Azərbaycanda da ediblər. Sadəcə olaraq, dünya ictimaiyyəti bunu görmür, ya da ki, görmək istəmir. Necə ki, Qarabağda erməni vəhşilikləri faktiki olaraq heç kim tərəfindən təsdiqlənmirdi. Halbuki iki dəfə ATƏT-in faktaraşdırıcı missiyası o vaxt işğal altında olan torpaqlara göndərilmişdi. Ancaq onların məruzəsinə baxdıqda, yenə də ikili standartlar görürük.

Bir tərəfdən, o vəhşilikləri, dağıntıları, qanunsuz məskunlaşmanı etiraf etməyə məcbur oldular, digər tərəfdən yenə də balanslı yanaşaraq işğalçı ilə işğala məruz qalanı necə deyərlər, bir müstəviyə qoydular. Ona görə Qərbi Azərbaycanda ermənilər tərəfindən törədilmiş dağıntılar mütləq dünya ictimaiyyətinə çatdırılmalıdır. Əminəm ki, Qərbi Azərbaycan İcması Azərbaycan dövlətinin dəstəyi ilə bunu edəcək.

”Bütövlükdə XX əsrdə xalqımızın çəkdiyi əzablar haqqında dünya ictimaiyyətinə daha geniş məlumat verilməlidir”-, deyən dövlətimizin başçısı vurğulamışdır: Biz hər zaman həqiqəti deyirik. Azad edilmiş torpaqlara gələn 10 minlərlə xarici vətəndaş bu gün artıq öz gözləri ilə görür ki, xalqımız hansı vəhşiliklərə məruz qalıb. Bu gün orada gedən genişmiqyaslı quruculuq işləri bir daha xalqımızın iradəsini göstərir. Yenə də deyirəm, Ağalı kəndinin timsalında biz xalqımızın tarixi yaddaşını görürük. Çünki oranı heç vaxt görməyən uşaqlar, gənclər oraya qayıdıblar. Əminəm ki, biz eynisini Qərbi Azərbaycanda da görəcəyik.

O gün uzaqda deyil! Biz Qarabağa, Şərqi Zəngəzura qayıtdığımız kimi, Qərbi Azərbaycana da qayıdacağıq.

***Mətanət Məmmədova***

# Uşaqların nitqi necə inkişaf edir?



Bütün sağlam uşaqlar dil öyrənmək qabiliyyəti ilə doğulur və doğulduqdan sonra bir neçə gün ərzində insan səsini digər səslərdən, anasının səsini isə başqalarından asanlıqla ayırd edə bilir. Bunlar körpələrin dil inkişafı üçün genetik meyilini ortaya qoyan mühüm tapıntılardır. Danışmaq üçün zəruri olan qırtlaq, səs telləri kimi strukturlarda fizioloji problem olmadığı halda, eşitmə qavrayışı normal, körpənin nevroloji inkişafı adekvatdırsa, dil mənimsənilməsi təbii və düzgün şəkildə baş verəcək. Lakin nitq üçün zəruri olan komponentlərdən birində yaranan hər hansı problem nitqin ləngiməsinə və ya dil bacarıqlarının əldə olunmamasına səbəb ola bilər. Əgər uşaq nitq yaşına çatmış, lakin hələ danışmağa başlamamışsa, dil inkişafında yaşıdlarından geri qalırsa, işarələrlə və ya tək sözlərlə ikitərəfli ünsiyyəti təmin etməkdən kənara çıxa bilmirsə, nəzərə alınmalıdır ki, nitq ilə əlaqəli pozğunluq ola bilər. SİA mövzu ilə bağlı araşdırma aparıb.

## Körpələr nə vaxt danışır?

Körpələr doğuşdan dərhal sonra ağlama, əsnəmə, gəyirmə və öskürmə kimi həyati fəaliyyətlərlə bağlı səslər çıxara bilər. Bu səslər dil bacarıqlarının əlaməti olmasa da, körpənin qırtlaq və səs telləri kimi fizioloji strukturlarının düzgün işləməsinin göstəricisi kimi qəbul edilə bilər.

- Körpə 2-5 aylıq dövrdə gülmək, qışqırmaq kimi məmnuniyyəti ifadə edən səslər çıxarmağa başlayır.
- 4-8 aya qədər uşaq sait və samitləri öyrənir, tək hecalı səslər çıxarır.
- Altı ayını tamamlayan körpə hecaları yaxşı öyrənir və tez-tez fasilələrlə "ba-ba", "nə-nə" kimi asan tələffüz edilən səsləri təkrarlamağa davam edir.
- İlk sözlərin tələffüzü 8-18-ci aylar arasında, daha çox isə 12-ci ayda olur. Bu dövrdə körpə "gəl, get, dayan, al, ver" kimi təkhecalı sözlərlə ünsiyyət qurmağa başlayır.
- 18 aylıq bir körpənin təxminən 10 sözü bir-bir söyləyə bilməsi gözlənilir.
- Körpənin dil inkişafı düzgün davam edərsə, 2-ci ilin sonuna doğru iki fərqli sözü bir araya gətirərək "topu mənə ver" kimi mənalı cümlələr qura bilər. Bu dövrdə körpə eşitdiyi hər səsi öyrənməyə son dərəcə maraq göstərir və onun lüğət ehtiyatı 200-ə çatır.
- Növbəti yarım ildə bu rəqəm iki dəfə artır və 2,5 yaşlı körpə üçün normal lüğət 400 civarındadır.
- 3 yaşına qədər uşaqların çoxu son dərəcə səlis danışmağa və fikirlərini daha asan ifadə etməyə başlayır. Bu dövrdə uşaq həmişə düzgün fel nümunələrindən istifadə edə bilməsə belə, istədiyini ifadə etmək üçün asanlıqla cümlələr qurmağı bacarır. Sual cümlələri və mənfi cümlələr ilk dəfə təxminən 3 yaşında eşidilir.
- 3,5 yaşına qədər uşağın öyrəndiyi sözlərin sayı 1000-i keçir və ünsiyyət daha zövqlü olur.
- 4-4,5 yaşlarında uşaqların əksəriyyəti problemsiz düzgün fel nümunələri ilə cümlə qurmağı bacarırlar.

## Niyə bəzi uşaqlar danışa bilmir?

Uşaqlarda dil inkişafı bəzi hallarda gecikə bilər. Bu halları aşağıdakı kimi sıralamaq olar:

- qavrayış çətinlikləri;
- diqqətin olmaması;
- danışıq və eşitmə orqanlarında pozğunluqlar;
- ətraf mühit amilləri (stimulyasiyanın olmaması, texnoloji cihazlarla çox vaxt sərf etmək və s.);
- zehni əlillik.

## Uşaqların nitqi necə inkişaf edir?

**Kitab oxumaq:** Mütəxəssislər deyirlər ki, uşaqlara hələ 6-cı ayından kitab oxumağa başlaya bilərlər. Təbii ki, 6 aylıq körpə oxunan kitabı başa düşməyəcək, amma eşidəcək. Körpənin səsinizi eşitməsi, onunla maraqlandığınıza işarədir. Kitab oxuma fəaliyyəti uşaqların emosional və konseptual inkişafını sürətləndirir. Bu dil bacarıqlarını artırmağa və dinləmə bacarıqlarını inkişaf etdirməyə kömək edir. Araşdırmalar göstərir ki, körpəlikdən kitab oxunan uşaqlar yaşıdlarından daha tez danışır və daha uzun cümlələr qura bilirlər.

**Uşaqla danışmaq:** Araşdırmalar göstərir ki, göz təması quraraq danışılan uşaqların qəbuledici və ifadəli dil bacarıqları daha yaxşı inkişaf edir. Uşaqların onları başa düşməyəcəklərini düşündüyünüz üçün onlarla danışmamaq düzgün yanaşma deyil. Çünki uşaqlar onlarla edilən hər bir əlaqəni başa düşürlər. Bundan əlavə, uşağın qarşısında uyğun salamlaşma, vidalaşma və nəzakətli sözlərdən istifadə etmək uşağın bu sözləri daha tez öyrənməsinə kömək edir.

**Digər uşaqlarla ünsiyyət:** Uşaqlar modelləşdirmə yolu ilə öyrəndikləri üçün sosial mühitlər onlar üçün yaxşı öyrənmə yeridir. Uşağın xüsusilə digər uşaqlarla qarşılıqlı əlaqəsi onun dil bacarıqlarını sürətləndirir və təkmilləşdirir. Dil inkişafı ləngimiş uşaqlar uşaq bağçasına və ya məktəbəqədər təhsilə getdikdə, onların söz sayı birdən-birə artır və dil bacarıqları yaxşılaşır. Həmçinin eyni yaşda olan qohumların uşaqları ilə bir yerdə olmaq, başqa uşaqlarla çöldə və ya parkda bir yerdə olmaq da dil inkişafını sürətləndirir.

**Oyun oynamaq:** Uşaqları oyuncaqları ilə oyun qurmağa və ozamankı rolları haqqında danışmağa təşviq etmək lazımdır. Ailə olaraq oyun oynamaq və ya başqa uşaqlarla oynamaq da dil inkişafı üçün faydalıdır.

**Texnoloji cihazlardan uzaq durmaq:** Bəzi söz və mahnıların xüsusilə televiziyadan öyrənildiyi düşünülsə də, texnoloji vasitələr uşağın içinə qapanıq olmasına səbəb olur və dil inkişafına mənfi təsir göstərir. Xüsusilə planşet və ya telefonla oynayan uşaqlar dəqiqələrlə stimullardan uzaq olurlar. Bu cihazlarla çox vaxt keçirən uşaqlarda dil tənbəlliyi inkişaf edir.

**Barmaq kuklaları, mahnılar:** Barmaq kuklaları ilə oyunlar, mahnılar və uşaq mahnıları məşq etmək uşaqlarda həm öyrənməni, həm də dil bacarıqlarını sürətləndirir.

**Mütəxəssis yardımı:** Əgər uşağınızın dil inkişafı ilə bağlı hər hansı bir şübhəniz varsa, onu digər uşaqlarla müqayisə etmək əvəzinə bir mütəxəssisdən kömək almaq faydalı olacaq.

## Körpələrdə nitq mərhələləri hansılardır?

*Körpələrdə nitq mərhələləri iki şəkildə araşdırıla bilər: həyatın ilk ili və məktəbəqədər dövr.*

Həyatın ilk ili prelingvistik mərhələ adlanır və bu mərhələdə körpə sözlərdən əvvəl səslər və jestlərlə ünsiyyət qurmağa çalışır. İlk iki ayda ağızdakı əzələlərə nəzarət əldə edilir və körpə nitqsiz səslər çıxarmağa başlayır. 5-ci aydan sonra ana dilinin sait səslərini tələffüz edir və 6-cı aydan etibarən bu tələffüzləri təkrarlayır. Vokal gimnastika mərhələsi də adlandırılan bu mərhələdə körpənin həm öz səsini, həm də ətrafdan gələn oxşar səsləri eşidə bilməsi dil inkişafı üçün son dərəcə əhəmiyyətlidir.

Sonrakı proses məktəbəqədər yaşa qədər davam edir və əsas dil bacarıqlarının əldə olunduğu mərhələ kimi müəyyən edilir. Bu mərhələdə söz ehtiyatı yaradılır və inkişaf etdirilir, ətraf mühitlə birbaşa dil vasitəsilə ünsiyyət qurulur, ünsiyyət bacarıqları formalaşır. Buna görə də bu, nitq gecikməsi kimi təpintıların görünəcəyi və əgər varsa, autizm, serebral iflic və eşitmə itkisi kimi əsas xəstəliklərin aşkar ediləcəyi mühüm inkişaf mərhələsidir.

## Nitqin gecikməsinə səbəb nədir?

Nitq müəyyən qaydalarla tənzimlənən şifahi ünsiyyət sistemidir. Bu sistem hər bir fərdin bacarıqlarına və zəka səviyyəsinə görə fərdi şəkildə formalaşır və bir çox genetik və ətraf mühit faktorlarından da böyük təsirlənir. Bir çox araşdırmaya uyğun olaraq sosial mühitlə qarşılıqlı əlaqə səviyyəsi, bacı-qardaşların sayı, uzun xəstəlik dövrü və vaxtından əvvəl doğuş kimi şərtlərin olması, valideynlərin təhsil vəziyyəti, övladlığa götürülmə qabiliyyəti kimi bir çox faktorun olduğu söylənilə bilər. Valideyn və ya baxıcının yanaşması və sosial-iqtisadi vəziyyəti körpənin dil inkişafına təsir edir.

Bəzi vəziyyətlər uşaqlarda gec danışma riskini artırır. Bunlar iki fərqli şəkildə təsnif edilə bilər: prenatal və postnatal risk faktorları. Körpələrdə nitqin gecikməsi riskini artıran prenatal amillər müxtəlifdir, o cümlədən radiasiya və ya zəhərli maddələrə məruz qalma, infeksiya, xromosom anomaliyaları, anada hipotiroidizmin olması, eşitmə görmə itkisi və travma.

Postnatal faktorları vaxtından əvvəl doğuş, az çəki, hipoksiya (oksigen çatışmazlığı), uzun müddət davam edən sarılıq, qidalanma, infeksiya, anadangəlmə anomaliyalar, ətraf mühitin stimullaşdırıcı intensivliyi, ana-körpə qarşılıqlı əlaqəsinin olmaması, tək uşaq olması və aşağı təhsil səviyyəsi kimi göstərmək olar. Bütün bunlar körpədə gec danışma riskini artıran mühüm amillərdir. Ancaq eşitmə itkisi, eşitmə nevropatiyası pozğunluqları, autizm spektrinin pozulması, zehni gerilik, yarıq damaq-dodaq anomaliyaları, ikidillilik və psixososial məhrumiyyətlər kimi bəzi vəziyyətlər birbaşa danışma gecikməsinə səbəb ola bilər. Bunlardan birinin olması halında, körpənin bütün inkişafı yaxından izlənilməlidir.

## Gec danışan uşaq üçün nə etmək lazımdır?

Hər hansı bir nitq pozğunluğu körpənin ünsiyyət vərdişlərinə, psixososial sağlamlığına, zəka səviyyəsinə və intellektual inkişaf əsaslarına birbaşa təsir göstərir. Ona görə də ilk növbədə nitq gecikməsinə səbəb ola biləcək risk faktorları bilinməli və bu amillərdən birinin olması halında körpə inkişaf mütəxəssisləri tərəfindən izlənməlidir.

Hər bir körpənin inkişaf prosesi özünəməxsus fərqlər göstərir. Buna görə də yuxarıda qeyd etdiyimiz nitq mərhələləri körpənin neyroinkişaf səviyyəsindən, ailənin sosialmədəni xüsusiyyətlərindən, körpənin böyüdüyü mühit şəraitindən və bir çox digər amillərdən asılı olaraq dəyişə bilər. Bu səbəblə qeyd olunan aylarda nitqin olmaması valideynləri narahat etməməli və nitq bacarıqlarının oxuma-yazma kimi öyrənmə prosesini tələb etdiyi bilinməlidir. Bu nöqtədə övladı gec danışan analar, körpənin inkişafını dəqiq şəkildə izləmək üçün mövzu ilə bağlı ətraflı məlumat sahibi olmağa diqqət etməli və öz sahəsində mütəxəssis olan uşaq inkişafı mütəxəssisləri və pediatrlarla əməkdaşlıq etməlidirlər.

*Ayşən Vəli*

ARAŞDIRMA

# Bir inci saflığı varsa da suda...

*...artıq içiləndə dərd verir o da*





İnsan bədəninin 55-75%-i sudan ibarətdir. Körpəlikdə bədənimizdə 75% olan su, yaş artdıqca 55%-dək düşür. Su bədənimizdəki qidaları hüceyrələrə daşımağa kömək edir və orqanizmin tullantılarını hüceyrələrdən təmizləyir. Eyni zamanda, bədən istiliyini tarazlaşdırır, oynaqları və daxili orqanların fəaliyyətini rahatlaşdırır, qan dövranını təmin edir, ürək-damar funksiyalarını qoruyur. Araşdırmalar arıqlamaqdan baş ağrısına, böyrək daşlarından əhval-ruhiyyəyə qədər bir çox problem zamanı su içməyin faydaları barədə ciddi nəticələr ortaya qoyur.

Su içməyin orqanizm üçün çoxlu faydaları var. Su bütün orqan və toxumaların işləməsi üçün zəruri olan qan dövranı üçün lazımi zəmin yaradır. Ürək-damar sistemi, tənəffüs sistemi, həzm sistemi, reproduktiv sistem, sinir sistemi, böyrəklər, beyin və qaraciyərin düzgün işləməsi kifayət qədər su istehlakından asılıdır. Bundan əlavə, müntəzəm və kifayət qədər su içmək qəbizlik və yüksək təzyiqi qaydaya salır.

Bədəndən 2% və ya daha çox su itkisi olduqda, idrak qabiliyyətimiz azalmağa başlayır. Bədəndən itirilən su əvəz edilmədikdə konsentrasiyanın olmaması, reflekslərin yavaşlaması, qısamüddətli yaddaş problemləri, əhval-ruhiyyənin olmaması və narahatlıq yarana bilər. Bunun qarşısını almaq üçün gündəlik işləriniz zamanı su içməyi unutmamalısınız. Susuzlaşma fiziki performansa və beyin quruluşuna təsir göstərir, beyin toxumasının kiçilməsinə səbəb ola bilər.

Heç bir canlı su olmadan yaşaya bilməz. Nisbi su çatışmazlığı bədənin bəzi funksiyalarını sıradan çıxardır, sonra isə öldürür. Su ilk əvvəl enerji qaynağıdır. Su bədənin hər hüceyrəsində siqnal və maqnitizmin qurulmasında enerji çıxarır, bizə həyat gücü verir. Su hüceyrə quruluşundakı maddələri bir-birinə bağlayan əsas vasitədir. Ziyanlı DNT-nin qarşısını alır və qurulmasında və bərpasında köməkçi olur. İmmunitet sisteminin mərkəzi olan sümük iliyində xərçəng də daxil olmaq üzrə, müxtəlif xəstəliklərə qarşı gücləndirici effekt yaradır. Bütün qidaların, vitaminlərin və mineralların təməl həlledicisidir. Bədəndə qidaları kiçik parçalara ayırır, həzmlərində və son mərhələlərində əsas yeri tutur. Bütün elementlərin bədənə daşınmasına köməkçi olur. Ağciyərlərdə oksigen yığan qırmızı qan hüceyrələrinin iş səmərəsini artırır.

Baş ağrınız olan günlərdə kifayət qədər su istehlak etdiyinizə əminsinizmi? Çünki araşdırmalar göstərir ki, baş ağrılarının səbəblərindən biri də susuzluq ola bilər. Bu, həmçinin miqreni oyada və ya miqren ağrılarının daha uzun çəkməsinə səbəb ola bilər. Su istehlakı böyrəklərimizin sağlamlığı üçün də vacibdir. Çünki kifayət qədər miqdarda su istehlak etmək böyrəklərin bədəndən zərərli maddələri çıxarmasına kömək edir. Bundan əlavə, araşdırmalar göstərir ki, insanların çoxunun həyatının müəyyən dövründə əziyyət çəkdiyi böyrək daşları su istehlakı ilə əlaqəlidir. Yetərli miqdarda su içmək böyrəklərdə daş əmələ gəlməsi riskini 60% azaldır və həmçinin təkrarlanma ehtimalını azaldır. Bundan əlavə, kifayət qədər su istehlakı sidik yolları infeksiyalarının qarşısını ala bilər10 və sidik kisəsi xərçəngi ehtimalını azalda bilər. İçdiyimiz suyun miqdarı dərinin quruluğuna, sərtliyinə və elastikliyinə, həmçinin dərinin nəmliyinə təsir göstərir. Quru dəri kimi probleminiz varsa, gündəlik su istehlakınızı artırın.

Araşdırmalar göstərir ki, su istehlakının artırılması pəhriz saxlayan insanların arıqlamasına müsbət təsir göstərir. 500 ml su içmək maddələr mübadiləsi sürətinizi 30% artırır. Bu artım 10 dəqiqə ərzində başlayır və təxminən yarım saatdan sonra maksimum səviyyəyə çatır. Yeməkdən əvvəl su içməyin daha az yemək yeməyə kömək etdiyi və beləliklə də daha az kalori istehlak etdiyi aşkar edilib.

Məşq edərkən itirdiyiniz suyu bədəninizə qaytarmasanız sağlamlığınız təhlükədə olar, ona görə də məşq edərkən ara-ara su içməyi unutmayın. Beləliklə, bədəninizin susuz qalmasının qarşısını ala, gücünüzü bərpa edə, dözüm qazana və məşq müddətinizi uzada bilərsiniz. Az su içən insanlar, istehlak etdikləri suyun miqdarı artdıqca daha az yorğun və yuxusuzluq hiss etdiklərini, içdikləri suyun miqdarını azaldanlar isə bunun əhval-ruhiyyələrinə mənfi təsir etdiyini bildirirlər. Əgər bəzi günlərdə daha narazı, daha az enerjili və daha neqativ hiss etdiyinizi hiss edirsinizsə, o zaman gündəlik istehlak etdiyiniz suyun miqdarı barədə düşünün.

Bədəninizdən tər və sidiklə çıxarılan suyun yerini doldurmaq üçün də su istehlakı vacibdir. Bədəniniz susuzluq hissi ilə yanaşı bəzi əlamətlərlə suya ehtiyacınız olduğunu bildirir. Məsələn, quruyan ağız, qol və ayaqlarda hiss edilən zəiflik, baş ağrısı və başgicəllənmə kimi simptomlar bədəninizin



susuz qalması deməkdir. Təbii ki, içdiyiniz suyun keyfiyyəti də içməli su qədər önəmlidir. Bütün bədənimizə təsir edən və həyatımızın əsasını təşkil edən su keyfiyyətli olmaldır.

Sağlam bir insan hər gün bədən çəkisinin hər kiloqramı üçün təxminən 35 ml su içməlidir. Misal üçün, çəkisi 50 kiloqram olan şəxs 1,7 litr, 60 kiloqram çəkisi olan şəxs 2,1 litr, 70 kiloqram çəkisi olan şəxs 2,4 litr, 80 kiloqram çəkisi olan şəxs isə 2,8 litr su istehlak etməlidir. Yəni, nə qədər ağırsınızsa, bir o qədər çox suya ehtiyacınız var. Amma, çox su içmək də kifayət qədər içməmək qədər zərərlidir. Tövsiyə olunan gündəlik miqdar böyrəklərinizin və ürəyinizin ehtiyacı olan miqdarı əks etdirir. Unutmayın, inci qədər saf su da bəzən orqanizmimizə zərər verə bilər...

Hər gün, yuxudan ayıldıqdan sonra içdiyiniz 1 stəkan su təravətləndiricidir, gecədən azalan su ehtiyatını bərpa edir və bədəni qüvvətləndirir. Ehtiyacınız olan suyun ilk litrini səhər-günorta aralığında istehlak edin. Bəzən su yerinə bol miqdarda çay, kofe istehlak edənlər bununla bədənin su ehtiyacını ödədiklərini düşünürlər. Lakin heç bir içki suyu əvəz edə bilməz. Əksinə, çay, kofe, qazlı və rəngli suların həddindən artıq istehlakı susuzluq hissini yatır və orqanizmin suya olan ehtiyacı azalır. Susuzluq hiss etməmək orqanizmin gündəlik su ehtiyacının ödənilməsi demək deyil. Unutmayın ki, rəngli, şirin sularda kalori səviyyəsi də yüksəkdir. Amma adi içməli suda kalori yoxdur.

***Lalə Mehralı***



**İLHAM**

## "Azəravtoyol" ASC cəmiyyətə meydan oxuyur

Qış fəsli gələndə kasıbın, fağırın qara günləri başlayır. Ona görə yox ki kasıb kommunal ödənişləri ödəyməkdə çətinlik çəkdiyindən gileylənib öz-özünə mızıldanacaq. Deyəcək ki, kaş elə həmişə yay olaydı, kaş qış gəlməyəydi. Lakin zaman öz oxu ətrafında fırlanır və yaz yayı, payız isə qış fəslini əvəz edir. Budur, artıq çoxlarının arzu etmədiyi qış fəsli qapıları döyməkdədir. Qışın bir əması da var ki, bu fəsildə varlıların məhəllələrindən fərqli olaraq kasıbların küçələrində iş-güc dalınca gedib-gəlmək çətin və müşkül bir işdir. Məhəllələrarası yollar bəzən elə acınacaqlı vəziyyətdə olur ki, yağış yağanda Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi İdarəsinə zəng edib qayıq çağırmaq məcburiyyətində olursan. Hərçənd Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi İdarəsinə zəng edib qayıq çağırsan, halın fəna olar. Telefonun o başında acıqlı səslə "sənin başın xarab olub, get, işinlə məşğul ol" deyə bildirməklə söhbəti qapayarlar. Eşitdiyin acıqlı sözdən pərişan olsan da susacaqsan, mısmırığın yerlə getsə də asta addımlarla, bəzən də Kenquri kimi tullana -tullana küçədəki keçilməz yolu adlayıb, nisbətən hündür hamar yola çıxacaqsan.

Ümumilikdə magistral yolların vəziyyəti pis deyil. Hətta bu yaxınlarda göz dəyməsin ödənişli yol da istifadəyə verildi. Kimin cibindəki pulu bir qədər artıqdırsa, ödənişini etməklə Bakı-Quba ödənişli yoldan istifadə edə bilər. Yəni, belə baxanda hər şey eladan da eladır. Lakin bu, gəlişigözəl də olsa, xoş sözləri kənd və qəsəbələrin yollarına aid etmək mümkün deyil. Çünki Bakının elə kənd və qəsəbələri var ki, onların küçələri dağ rayonlarının ucqar kəndlərinə bənzəyir. Yayda toz-torpaq, payız-qış fəslində palçıq, iri gölməçələr, bir sözlə, keçilməsi çətin olan bərbad yollar. Bu vəziyyət əhali tərəfindən narazılıq yaratsa da tədbir görən, problemi aradan qaldıran yoxdur. Aidiyyəti qurumlara ünvanlanan müraciətlər, şikayətlər də qulaqardına vurulur. Halbuki, hər il Bakıətrafı kənd və qəsəbələrin küçələrarası avtomobil yollarının tikintisi və təmiri üçün dövlət büdcəsindən yüz milyonlarla manat məbləğində vəsait ayrılır. Kənd və qəsəbələrdə küçələrarası yolların problemləri isə həll edilmir. Günahkar isə haqlı olaraq Azərbaycan Avtomobil yolları Dövlət Agentliyi göstərilir. Çünki yol tikintisi və təmirini bu qurum həyata keçirir. Ancaq "Azəravtoyol" ASC-nin başbilənlərinin başaları daha böyük həcmli maraqlı layihələrin icrasına qarışdığından, kənd və qəsəbələrin kiçik yollarının çəkilməsinə vaxt sərf etməyi mənasız hesab edirlər. Yenidən qurulan və ya təmir edilən əksər yollar isə keyfiyyətsiz olur. Binəqədi rayonu Biləcəri qəsəbəsi Yusif İmanov küçəsində isə Azərbaycan Avtomobil yolları Dövlət Agentliyi əsl həngamə yaradıb. Belə ki, uzun illərdən sonra sakinləri küçədə beton-asfaltlaşma işləri həyata keçiriləcəyi ilə müjdələyən "Azəravtoyol" ASC əməli fəaliyyəti ilə insanları pərişan edib. İşlərin görülməsi qaydasına görə, asfalt - beton örtüyü döşənməmişdən öncə yolda bərkitmə işləri aparılmalı, hamarlanma işləri görülməlidir.

Lakin "Azəravtoyol" ASC tərəfindən bu işlər yerinə yetirilmir. Sulu gölməçələrin, palçıqlı yolların üzərindən asfalt örtüyünü çəkirlər. Təbii ki, bu cür yolların ömrü uzun olmur. Digər diqqətçəkən məqam ondan ibarətdir ki, "Azəravtoyol" ASC-nin küçədə beton-asfatlaşma işlərinin görülməsinə rəhbərlik edən iş icraçısının öznəməxsus qaydalarının mövcudluğudur. Kim görüm-baxım edirsə, onun evinin ətrafı, səkiləri asfalt örtüyü ilə əhatə olunur, pulu-parası olmayan və yuxarıda qeyd etdiyim kimi, fağır insanların evlərinin və hasarlarının ətrafı asfalt örtükdən məhrum olunur. İnsanlar bu qaydalara etiraz etdikdə, iş icraçısı "rəhbərliyin tapşırığıdır və işlər belə də yekunlaşmalıdır" deyə mızıldanır. Başa salmağa çalışılır ki, "yolun hamarlanması adı ilə traktorla qazılan hasarların və evlərin özüllərində çatlar yaranıb, heç olmasa onları beton-asfaltla örtün". Arxasını "Azəravtoyol" ASC -də hansısa rəhbər şəxsə söykəmiş iş icraçısı "yol çəkirəm, hasar və evlərin bünövrəsini beton-asfatla örtmək mənlik deyil", - deyə bildirir. Mübahisələr yaranır, "yağış suları hündürlükdə olan asfalt yol vasitəsilə çökəkdə olan evin özülünə axacaq, bunu qaydaya salın"-deməklə xahişlər edilir. Yenə də tərslik edən iş icraçısı dirəniş göstərir, "bu mənim problemim deyil", - deyib aradan çıxır. Kimə şikayət edəsən, kimdən kömək istəyəsən, ünvan yox, tədbir görə biləcək vəzifəli şəxs də gözə dəymir. Əsasən, problemi həll edə biləcək ünvan "Azəravtoyol" ASC rəhbərliyidir ki, onların biri digərinin ayağını tapdalayacağı inandırıcı deyil. Digər tərəfdən tapşırıq "Azəravtoyol" ASC rəhbərliyindən gəlməsə, təbii ki, Y.İmanov küçəsində və ətraf ərazilərdə həngəmə qurmaqla sakinlərə meydan oxuyan iş icraçısı həddini aşmaz. Qeyd edim ki, Biləcəri qəsəbəsində bəzi küçələrin, o cümlədən Y.İmanov küçəsinin heç zaman asfalt-beton örtüyü olmayıb. Bu da yayda toz-torpaqdan, qışda isə palçıqdan burada yaşayan insanların gediş-gəlişində ciddi problemlər yaradır. Xüsusilə də, məktəbli uşaqlar əziyyət çəkirlər. Balaca körpələr dərin sulu çuxurların olması səbəbindən yolda hərəkət edə bilmirlər. "Azəravtoyol" ASC -ni isə insanların üzləşdikləri yolsuzluq problemi maraqlandırmır. Halbuki dövlət tərəfindən küçənin yol probleminin həll edilməsi üçün "Azəravtoyol" ASC-nin hesabına böyük məbləğdə maliyyə vəsaiti köçürülüb. Görünür, ayrılan maliyyə vəsaiti başqa məqsədlərə xərcləndiyi üçün küçənin beton-asfaltlaşdırılması təxirə salınıb. El məsəlidir, "gözünüzün doyan günü olsun".

# Rusiyalı ekspert: "Qərb Ermənistanı yeni Ukraynaya çevirə bilər"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*

## Aleksey Fenenko: Ermənilərə söz verdilər ki, onlara hər cür dəstək verəcəklər, ermənilər isə elə bilirlər ki, Qərb onlara Qarabağda nəyisə qaytarmağa kömək edəcək













Rusiya Beynəlxalq Məsələlər Şurasının eksperti Aleksey Fenenko Brüsseldə Avropa İttifaqının Şərq Tərəfdaşlığı sammitində Ermənistan-Azərbaycan mövzusu ilə bağlı Moskva-Baku" portalına müsahibəsində maraqlı məqamlara toxunub. Ekspertin müsahibəsini oxucularımıza təqdim edirik.

***- Aİ diplomatiyasının rəhbəri Josep Borrell Brüsseldə Şərq Tərəfdaşlığı ölkələrinin xarici işlər nazirliklərinin rəhbərləri ilə görüşdə Ermənistanı xüsusi qeyd edib və bildirib ki, bu ölkədəki vəziyyət güclü dəstək tələb edir və bu dəstəyin necə artırıla biləcəyini nəzərə almaq lazımdır. ... Həmçinin, Aİ-nin xarici xidmətinin rəsmi nümayəndəsi Peter Stano Avropa Sülh Fondu vasitəsilə Ermənistana müdafiə dəstəyinin hazırlanması ilə bağlı çıxış edib...***

- Brüsseldə keçirilən "Şərq Tərəfdaşlığı" sammiti göstərdi ki, Aİ Ermənistanı Rusiyadan uzaqlaşmanın yeni mərhələsinə sövq edir. Hələ 2001-2002-ci illərdə Qərb dövlətləri Ermənistanın Rusiya ilə tərəfdaşlığından fərqli olaraq NATO-ya yaxınlaşmasının vacibliyindən danışmağa başladılar. Onlar Ermənistana pıçıldadılar ki, Rusiya etibarsız müttəfiqdir və Şimali Atlantika Alyansı daha yaxşı tərəfdaş olacaq.

Bu illər ərzində Ermənistanda elita və əhali arasında qərbyönümlü əhval-ruhiyyə aşılanıb və ölkəni Rusiyadan uzaqlaşdırıb NATO-ya çevirmək istiqamətində tədricən hərəkət baş verib. Fransa, Belçika və qismən də ABŞ dedi ki, Ermənistan qərbyönlü yol tutmalıdır. Yəni Ermənistanın qərb vektoru əvvəldən uzaqdır, bu gün Qərblə yaxınlaşma prosesi getdiyi yolun yarısından çoxunu təşkil edir.

Ermənistan 2009-cu ildə yarandığı gündən Aİ-nin Şərq Tərəfdaşlığı proqramına daxil edilib. Sonra İrəvan AİI-yə üzv olmasına baxmayaraq, Aİ ilə sadələşdirilmiş, lakin yenə də assosiativ saziş imzaladı. Amma bu gün dünyanın parçalandığı, qlobal geosiyasi dəyişikliklərin baş verdiyi bir vaxtda onun Qərb kuratorlarının İrəvana təzyiqləri Rusiyadan getməsi ilə İrəvanın müəyyən dividentlər alacağı mesajı ilə sürətlənir.

***- Doğrudan da, Şərq Tərəfdaşlığı sammitində Ermənistan XİN rəhbəri Moldova və Ukraynanın Aİ ilə üzvlüklə bağlı danışıqlarını alqışlayıb və bəyan edib ki, İrəvanın da Avropa istəkləri var... Və nazir Ermənistanın Roma Əsasnaməsini ratifikasiya etməsini beynəlxalq hüquq sisteminin möhkəmlənməsi adlandırıb...***

- Bunu yenə də anti-Rusiya addımı kimi qələmə vermək olar. Məhz buna görə də Ermənistan Qərbdə və xüsusən də Aİ-nin Şərq Tərəfdaşlığı sammitində ələ salınır. Axı İrəvan Rusiya prezidentinin həbsinə order verildəndən az sonra Roma Statutunu ratifikasiya etdi. Ermənistanın siyasətinin nəyə yönəldiyi tamamilə aydındır. Bu isə Qərbi heyran edir və bundan faydalanır.

***- Aİ Azərbaycanla sərhəddə missiyanı 50 faiz artırmaq qərarına gəlib. Azərbaycan Xarici İşlər Nazirliyinin rəhbəri Şərq Tərəfdaşlığı sammitində Aİ-ni tənqid edib. O, Aİ-nin bütün qurumlarını və dövlətlərini konstruktiv dəstək verməyə və ya heç olmasa Ermənistanla münasibətlərin normallaşdırılması prosesinə xələl gətirə biləcək hərəkətlərdən çəkinməyə çağırıb. O, bəzi Aİ ölkələrini Transqafqazda vəziyyəti sabitliyi pozmaqda ittiham edib...***

- Təbii ki, Azərbaycan narazıdır. Çünki bir çox Aİ ölkələri açıq şəkildə ermənipərəst mövqedən çıxış edirlər. Başqa bir məsələ odur ki, Ermənistanla Qərbin bütün bu yaxınlaşması ona heç bir divident gətirməyəcək. Ermənistan Avropa İttifaqından çox uzaqdır. Heç ümumi sərhədi də yoxdur. Ermənistanın strateji mövqeyi Avropa İttifaqı ilə istənilən real inteqrasiya üçün ümidsizdir.

***- Azərbaycanın Aİ-nin danışıqlar platformasından imtina etməsi ehtimalı nə dərəcədədir, çünki Avropa İttifaqı tərəfindən müxtəlif istiqamətlərdə Bakıya həddən artıq çoxlu hücumlar var... Bakı bunu görür və başa düşür.***

- Düşünmürəm ki, Azərbaycan özü bu platformadan çıxmaq niyyətindədir. Bakı gözləyəcək.

***- Fransa da indi Ermənistana silah tədarük etməyə başlayıb. Fransa Senatı bu yaxınlarda bəyan etdi ki, Ermənistan NATO ilə yaxınlaşmaq arzusunu ifadə edən ölkədir...***

- Məqsəd sadədir- Rusiya bu cür təxribatlara cavab olaraq Ermənistanı KTMT-dən çıxarsin. Yaxud Ermənistanın özü desin ki, biz KTMT-dən çıxırıq.

Amma bütövlükdə, fikrimcə, Ermənistanla NATO arasında bütün bu oyunların Rusiyanın təhlükəsizliyi üçün heç bir prinsipial əhəmiyyəti yoxdur.

***- Bildiyiniz kimi, Vaşinqtonla Bakı arasında qalmaqal yaradan ABŞ dövlət katibinin köməkçisi Ceyms O`Brayen İlham Əliyevlə görüşmək üçün Azərbaycana uçdu. Nəticə Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında potensial görüşdür...***

- Mən düşünmürəm ki, Azərbaycan Vaşinqtona inandı, orada inanacaq heç nə yoxdur, sadəcəi, ən azı indilik belə razılaşdı... Amerikanın növbəti hücumuna qədər.

Eyni zamanda, mən əminəm ki, amerikalılar bir daha ermənilərə söz verdilər ki, Qarabağla bağlı narahatlıqlarını nəzərə alacaqlar, hansısa şərtlərlə danışıqlara kömək edəcəklər, hansısa formada Türkiyəyə təzyiq göstərəcəklər. Ermənilər bunu həmişə olduğu kimi, dəstək kimi şərh etdilər. Elə bilirlər Rusiyadan uzaqda olsalar, Qərb onlara Qarabağda nəyisə qaytarmağa kömək edəcək.

Amma əslində heç kim onlara heç nə qaytarmayacaq və heç nə etməyəcək. ABŞ üçün Ermənistan qitənin daxilində çox uzaq və çox dərin, Türkiyə ilə eyni münaqişə nöqteyi-nəzərindən çox perspektivsiz və çox təhlükəlidir.

Amerikalılar Rusiya və Türkiyə ilə gərginlik yaratmaq üçün Ermənistanla oynaya bilərlər.

Amma son nəticədə, orada açıq-aşkar anti-Rusiya millətçi qüvvələr hakimiyyətə gəlsə, Ermənistanın başına da Ukrayna ssenarisinə bənzər bir ssenari gələ bilər. Amma o zaman Ermənistanın həm Azərbaycan, həm də Türkiyə ilə hərbi münaqişəsi olacaq ki, bu da onun üçün milli fəlakətlə nəticələnə bilər.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
14 dekabr
2023-cü il

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Uşaqların peyvəndlənməsi vacibdir?

*PEDİATR İZAH ETDİ*



"Uşaqlara birinci peyvənd doğumdan sonra 5-ci gün doğum evindəcə virus hepatitlərinə qarşı vurulur. 5-7-ci gün vərəmə və poliomielitə qarşı peyvənd edilir. Poliomielitə qarşı peyvəndləmə 2-4-cü aylarda təkrarlanmaqla üç dəfə tətbiq edilir. Uşağın iki aylığında göy öskürək, difteriya və tetanusa qarşı iynə vurulur. Peyvəndləmənin əsas hissəsi bitmiş sayılır. Qızılcaya qarşı birinci peyvənd bir yaşda vurulmalıdır. Bir il altı ay sonra revaksinasiya həyata keçirilir. Uşağın 6 yaşında qızılcanın ikinci iynəsi və təkrar difteriya peyvəndi vurulur". Bu sözləri SİA-ya həkim-pediatr Rita Həsənova deyib.

Həkimin sözlərinə görə, peyvəndləmədən əvvəl yoxlanış mütləqdir: "Nervopatoloq, cərrah və pediatr uşağı müəyyən edir. Hər peyvənddən əvvəl mütləq yoxlanış olmalıdır. Qan analizi verilir, uşağın çəkisi ölçülür. Nevroloji xəstəliyi, epilepsiyası, allergiyası, doğuş travmaları, qan xəstəlikləri olan uşaqlara peyvəndləmə olmaz. Belə uşaqlar ancaq poliomielitə qarşı peyvənd edilə bilər, digərləri əks göstərişdir. Peyvənd vurularkən uşaq tam sağlam olmalıdır, temperaturu olmamalı, öskürməməlidir.

Peyvəndlənən uşaqlar viruslara qarşı immunitet qazanır, xəstəliyə yoluxsalar da yüngül keçirirlər. Peyvəndləmədən sonra ölüm hallarının baş verməsi ilə bağlı iddialar elə də inandırıcı deyil, çünki həkimlər heç bir uşağı müayinə etməmiş peyvənd etdirmirlər. Uşaqda irsi-genetik xəstəliklər ola bilər, bu səbəblə vəfat edə bilər, bunu peyvəndin ziyanı kimi qələmə verirlər. Peyvənddən ölüm hadisələri çox nadir baş verə bilər".

R.Həsənova bildirib ki, dövlət xəstəxanalarında peyvəndləmə pulsuzdur, özəl klinikalarda isə ödənişlidir: "Peyvəndlər də istehsal olunduğu ölkəyə görə fərqlənir, amma təsir mexanizmi eynidir. Bütün peyvəndlər orqanizmə eyni cür təsir edir və immunitet qazandırır. Azərbaycanda peyvəndləmə məcburi deyil. Valideynlərin ərizə yazıb bəzi peyvəndlərdən imtina etmək hüququ var. Qızılca peyvəndi də məcburi deyil, valideyn uşağını qızılcaya qarşı peyvənd etdirməyə bilər. Vərəm peyvəndi isə məcburidir. Kütləvi şəkildə bütün yeni doğulmuşlara vurulur. Lakin bilmək lazımdır ki, lazımi yaş həddində vurulmayan peyvənd sonradan tətbiq edildikdə artıq effektiv olmur. 4 yaşa qədər peyvənd edilməyibsə, bundan sonra vurdurmağın əhəmiyyəti qalmır. Çünki peyvəndlər müəyyən fasilələrlə vurulmalıdır. Qızılca peyvəndi isə 1 yaşında vurulmayıbsa, 10 yaşa qədər vurdurula bilər".

***Ləman Sərraf***

# Kənd toyuğu ilə broyleri necə ayırd etməli?

*EKSPERT AÇIQLADI*





**"Sənaye üsulu toyuğu ilə kənd toyuğu arasında fərq çoxdur. Bəzən kənd toyuğu hiyləyə məruz qaldığı üçün seçərkən aldana bilirik". Bu sözləri SİA-ya açıqlamasında təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev deyib.**

Asim Vəliyev sözlərinə belə davam edib: "Kənd toyuğu gec bişir. Bəzən müddət 2 saata qədər uzana bilir. Sənaye üsulu toyuq isə ən çox yarım saata bişir. Kənd toyuğunun suyu bişərkən tünd rəng olur. Həmçinin suyu gel kimi qatı olur. Sənaye üsulu toyuğun suyu isə qəhvəyi bir görüntü alır. Kənd toyuğunun dərisi nazik olur. Damarları dəridən belə görünə bilir. Dərisinin rəngi qırmızıya çalır. Həm də kənd toyuğunun sümüyü möhkəm olur, əti sümükdən ayırmaq çətin olur".

***Ayşən Vəli***

# Rihanna Türkiyəyə gəlir



***Rihanna fevral ayında xüsusi bir təşkilat üçün İstanbulda pərəstişkarları ilə görüşəcək. Daha əvvəl dəfələrlə Türkiyədə olan və verdiyi konsertlərlə hər kəsi heyran edən Rihannadan daha bir sürpriz gəlib. SİA xarici mətbuata istinadən xəbər verir ki, ötən gün dünyaca məşhur menecer Mani Nordinə məşhur biznesmen Fırat İgidin dəvəti ilə İstanbula xüsusi qonaq kimi gəlib.***

Dostları ilə restoranda nahar etdikdən sonra qaldığı otelə gedən məşhur menecer jurnalistlərin suallarını cavablandırmayıb. Məşhur menecerin Türkiyəyə niyə gəldiyi də məlum olub. Bir müddətdir İstanbulda olan Nordinenin, Rihannanı İstanbula gətirəcəyi öyrənilib. Dünya şöhrətli ulduz müğənni fevralda xüsusi təşkilatda iştirak edəcək.

Xatırladaq ki, təxminən 10 il əvvəl Beşiktaş stadionunda konsert verən Rihannanın möhtəşəm konserti olub və minlərlə insan dünyaca məşhur ulduzu dinləməyə gedib. Bir müddət İstanbulda qalacaq məşhur menecer Mani Nordine intensiv görüşlər keçirəcək. Rihanna, Akon, Puff Daddy, Snoop Dogg, Usher, Pitbull, Pharell Williams, Will I Am, Chris Brown, 50 cent kimi bir çox məşhurun menecerliyini edir.

***Sevilin Abbasova***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4000